İqtisadiyyatda, mədəniyyətdə, elmdə - həyatın bütün sahələrində əldə olunmuş bütün nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir.

**HEYDƏR ƏLİYEV**

**QORXMAZ ABDULLA, ARİF XƏLİLOV,**
**TARİYEL ABBASLI**

# SÖNMƏYƏN MƏŞƏL

***(Cəbrayıl rayonundakı akademik M.Mehdizadə adına orta məktəbin 130 illiyinə həsr olunur)***

***Adiloğlu***
***Bakı – 2006***

**Kitab Cəbrayıl Rayon İcra Hakimiyətinin başçısı Mahmud Quliyevin təşəbbüsü ilə yazılmışdır.**

**Redaktor:** Şamo Nərimanoğlu
**Məsləhətçi:** Müzəffər Sadıqov

**Qorxmaz Abdulla, Arif Xəlilov, Tariyel Abbaslı**
**SÖNMƏYƏN MƏŞƏL**
Bakı, "Adiloğlu" nəşriyyatı, 2006, 124 səh.

Kitabda müəlliflər XIX əsrin II yarısında Cəbrayılda açılmış birsinifli kənd normal rus məktəbinin, hazırda isə akademik M.Mehdizadənin adının daşıyan bu tədris ocağının 130 ildə keçdiyi şərəfli inkişaf yolunun gerçək, tutarlı faktlarla, bədii-publisistik üslubda işıqlandırmışlar. Kitab müəllim və şagirdlər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

470000000
121 2006

## ПОСТАНОВЛЕНИЕ

Принято 19 сентября 1975 г.

Прот. № 136.

О 100-летии со дня основания школ им. В.И.Ленина Джадилабадского, с.Юхары-Салахлы Казахского, им. М.Горького Джебраильского районов республики.

1.Разрешить Джалилабадскому, Казахскому и Джебраилъскому райкомам партии совместно с Министерством просвещения Азербайджанской ССР отметить 100-летие со дня основания школ:

- им.В.И.Ленина Джадилабадского района - в ноябре 1975 г.,
- с.Юхары-Салахлы Казахского района - в декабре 1975 г.,
- им.М.Горького Джебраильского района - в феврале 1976 г;

2.Министерству просвещения республики по согласованию с райкомами партии внести предложения о представлении группы учителей указанных школ к присвоению почетного звания заслуженного учителя Азербайджанской ССР и награждению Почетной грамотой Президиума Верховного Совета Азербайджанской ССР.

3.Редакциям республиканских газет, Госкомитету Совета Министров Азербайджанской ССР по телевидению и радиовещанию опубликовать статьи и организовать передачи, посвященные деятельности этих школ.

AZƏRBAYCAN KP MK-nın
BİRİNCİ KATİBİ H.Ə.Əliyev yoldaşa

Azərbaycan KP Cəbrayıl rayon komitəsi bildirir ki, Cəbrayıl rayonunun Cəbrayıl qəsəbəsindəki M.Qorki adına orta məktəbin 1976-cı ildə 76 illiyi tamam olur.

Qafqaz tədris dairəsi üzrə sərəncamlar məcmuəsindən (1872-1876-cı illərin ikinci beşilliyi, Tiflis, 1890, səh. 646-647) məlum olur ki, 1873-cü ildə noyabrın 22-də çar hökuməti Zaqafqaziya ölkəsində hər bir quberniya və vilayətdə dövlət hesabına 3-ə qədər normal kənd məktəbi açmağa icazə vermişdir. Bu məktəblərdə fənlərin tədrisi mütləq rus dilində aparılmalı idi.

5 avqust 1876-cı ildə Qafqaz tədris dairəsi idarəsinin məktubu ilə Qazax qəzasının Dağ-kəsəmənli kəndində, Zəngəzur qəzasının Gorus kəndində və Cəbrayıl qəzasının Cəbrayıl kəndində məktəb açılması haqqında məsələ qaldırılmışdır. Qəzanın kənd icmaları məktəb üçün lazım olan binanı və müəllimlər üçün yaşayış evi tikdirməyi öhdələrinə almışlar. Beləliklə, 1876-cı ildə Cəbrayıl qəzasının Cəbrayıl kəndində bir sinifli normal rus məktəbinin açılması reallaşdı.

Cəbrayıl məktəbi 1876-cı ildə fəaliyyətə başlamış, ilk dəfə bu məktəbə 34 nəfər şagird qəbul edilmişdir. Məktəbin illik xərci 700 manat olmuşdur ki, bu vəsaitin 400 manatını yerli əhali ödəmişdir. İllər keçdikcə məktəbdə təhsil alan şagirdlərin sayı artırdı. Məktəb açılanda buraya 34 nəfər şagird qəbul edilmişdisə, şagirdlərin sayı 1880-ci ildə 36 nəfərə, 1895-ci ildə 91 nəfərə, 1896-cı ildə isə 117 nəfərə çatdırılmışdır.

Cəbrayıl kəndində olan normal rus məktəbi ilk ali məktəb kimi qəzada pedaqoji-metodiki mərkəz olmuşdur. Təsadüfi deyildir ki, 1895-ci ildə Cəbrayıl qəzasındakı kənd məktəb müəllimlərinin sahə qurultayı bu məktəbdə keçirilmişdir.

Bir sinifli kənd məktəbi bazasında inkişaf etmiş hazırki M.Qorki adına Cəbrayıl orta məktəbi əsl inkişaf yoluna Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra başlamışdır.

Məktəbin yetirmələrindən hazırda 1 nəfəri Elmlər Akademiyasının həqiqi üzvü, 2 nəfəri elmlər doktoru, 30 nəfərdən çoxu elmlər namizədi, 20 nəfərdən çoxu aspirant və dissertantdırlar. Eyni zamanda 3 nəfər yazıçı bu məktəbdə təhsil almışdır. Məktəbi qurtaranlardan 300 nəfərdən çoxu xalq təsərrüfatının müxtəlif sahələrində çalışırlar. Bu məktəbi bitirənlərdən Cəmil Məhəmməd oğlu Əhmədov Böyük Vətən Müharibəsində 20 yaşında Sovet İttifaqı Qəhrəmanı adını almışdır. Hazırda Sosialist Əməyi Qəhrəmanı Yusif Məhəmməd oğlu Fərzəliyev vaxtı ilə bu məktəbdə təhsil almışdır.

M.Qorki adına Cəbrayıl orta məktəbi ölkənin 34 məktəbi ilə, o cümlədən Moskva şəhərinin 204 №-li məktəbinin pedaqoji kollektivi və şagirdləri ilə müntəzəm olaraq dostluq əlaqəsi saxlayır.

Azərb. KP Cəbrayıl rayon komitəsi məktəbin 100 illik yubileyinin rəsmi qeyd edilməsi, məktəbdə işləyən 48 nəfər müəllimdən 4 nəfər müəllimə "Əməkdar

müəllim" adı verilməsi, 6 nəfərinin Azərb. SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri Fərman"ı ilə, 4 nəfərinin qabaqcıl maarif xadimi döş nişanı ilə, 8 nəfərinin Azərb. SSR Maarif Nazirliyi MAMCİ işçiləri Respublika Komitəsinin "Fəxri Fərmanı" ilə və məktəbin özünü isə ordenlə təltif edilməsi barəsində aidiyyəti təşkilatlara göstəriş vermənizi Sizdən xahiş edir.

Eyni zamanda məktəbin 100 illik yubileyi ilə əlaqədar olaraq M.Qorki adına Cəbrayıl orta məktəbi tarixi haqqında yazılmış 4 çap vərəqində kitabçanın buraxılmasına göstəriş verilməsi, yubileyin keçirilməsi ilə əlaqədar olaraq məktəbi qurtarmış, hazırda ölkənin müxtəlif müəssisələrində işləyən alimlərdən bir qrupunun iştirak etməsi üçün Rayon İcraiyyə Komitəsinin büdcəsindən 4 min manat vəsait ayrılması barədə Azərb.SSR Nazirlər Sovetinə sərəncam verilməsi, habelə yubiley şənliyində ətraf rayonların partiya, sovet və maarif orqanlarının nümayəndələrinin iştirak etməsinə icazə verilməsini də Sizdən acizanə xahiş edir.

Azərb.KP Cəbrayıl RK
Katibi K.Ağayev

Министерство просвещения Азербайджанской ССР доводит до Вашего сведения, что в 1975-1976 г.г. исполняется столетие создания следующих школ: средней школы имени М.Горького Джебраильского района, средней школы селения Юхары Салахлы Казахского района и средней школы села Привольное Джалилабадского района.

РК КП Азербайджана и Райисполкомы названных районов подняли вопрос о том, чтобы им разрешили торжественно отметить столетие этих школ.

Министерство просвещения поддерживает их ходатайство и со своей стороны просит Вашего разрешения.

Каждая из этих школ за указанный период сыграла определенную роль в развитии просвещения республики и в настоящее время превратилась в крупные средние школы.

Как сообщается из Джебраильского роно, согласно архивных материалов школа в Джебраиле была основана в 1876 году, как начальная и продолжала существовать до 1920 года, после чего она стала советской. С 1920 года школа была пятилетней, с конца 20-х годов - семилетней, а начиная с 1935/36 учебного года она была преобразована в среднюю.

В настоящее время в средней школе имени Горького Джебраильского района обучается 700 учащихся, в том числе 320 девочек. В последние 6 лет школа работает без второгодников. Около 50% всех учащихся занимаются на "4" и "5". Школа перешла на кабинетную систему преподавания.

2. Среди выпускников этой школы 1 академик, 2 доктора наук, более 30 кандидатов наук, более 20 диссертантов и аспирантов, 3 писателя, Герой Советского Союза Джалил Ахмедов, павший смертью храбрых на фронтах Великой Отечественной войны, выпускник этой же школы Герой Социалистического Труда Юсиф Фарзалиев также получил среднее образование в школе имени М.Горького.

Многие выпускники этой школы заняты созидательным трудом на различных участках народного хозяйства нашей страны.

Средняя школа селения Юхары Салахлы Казахского района была основана 2 января 1875 года. В досоветский период 14 выпускников этой школы окончили Горийскую учительскую семинарию, внесли большой вклад в развитие народного образования в Азербайджане.

Выпускниками школы этого периода были также известный генерал Алиага Шихлинский, первый летчик Азербайджана Фаррухбек Гаибов, известный врач Мамедрза Векилов.

Подлинный расцвет школы наступил после Победы Советской власти в Азербайджане. Вначале школа была пятилетней, затем семилетней, а с 1943 года - средней. В 1971 году школа перешла в новое типовое здание, где занятия ведутся в учебных кабинетах.

Если до 1920 года среди учащихся школы не было ни одной девочки, то в настоящее время из 759 учащихся - 377 девочек.

Из числа выпускников школы 2 доктора наук, 3 кандидата наук, 96 учителей, 22 инженера, 36 агрономов, 88 юристов, врачей, экономистов. Передовая труженица Надя Караева, ныне депутат Верховного Совета Азербайджанской ССР, также окончила среднюю школу в селении Юхары Салахлы. Привольненская средняя школа им. В.И.Ленина существует как сельская общеобразовательная школа с 1873 года. С 1865 года преобразована в земское нормальное училище. В 1573 году в школе учились 49 мальчиков и 12 девочек. Выпускники школы Горбунов Я., Дмитриев Я.Я.. Пономарев О.А., Свиридов Б.М. составили большевистской организации в селе Привольном, стали активными участниками борьбы за установление Советской власти в Азербайджане. После установления Советской власти коллектив школы вели большую работу по ликвидации неграмотности среди населения, с 1936 года Привольненская школа семилетка была преобразована в среднюю. 1082 человека получили неполное среднее, а 970 - ореднее образование. Из числа окончивших среднюю школу 340 чел. получили высшее образование, среди которых 5 кандидатов наук.

Многие выпускники школы стали видными партийными, советскими хозяйственными работниками, сражались на различных фронтах в годы Великой Отечественной войны, а ныне вносят свой вклад в строительство коммунистического общества в нашей стране.

В связи с вышеизложенным Министерство просвещения Азербайджанской ССР считает целесообразным отметить 100-летие основания средней школы села Привольное Джалилабадского района в ноябре 1975 года, средней школы Юхары Салахлы Казахского района - в декабре 1975 года, средней школы им. М.Горького Джебраильского района - в феврале 1976 года. В ознаменовании 100-летия создания было бы также целесообразно предусмотреть для руководителей и преподавателей этих школ присвоение почетных званий, награждение значками и грамотами.

Звание заслуженного учителя школ республики - 10 человек

Почетная грамота Верховного Совета Азерб.ССР - 15 человек

Нагрудный знак "Отличник просвещения Азерб.ССР" - 25 человек.

Почетная грамота Министерства просвещения и Республиканского комитета профсоюза работников просвещения, высшей школы и научных учреждений - 30 человек

При этим направляем Вам соответствующие материалы по этим школам.

МЕХТИ-ЗАДЕ.М.М.

## ЦК КП АЗЕРБАЙДЖАНА

Отдел рассмотрел предложение Джебраильского райкома партии о проведении 100-летия поселковой средней школы им. М.Горького. В связи с этим считаем необходимым информировать о следующем.

В 1975-1976 гг. трем средним школам республики им. М.Горького пос. Джебраил Джебраильского района, с.Юхары-Салахлы Казахского района и им. В.И.Ленина с.Привольное Джалилабадского района исполняется 100 лет со дня их основания.

Каждая из этих школ за свою многолетнюю историю сыграла определенную роль в развитии народного образования республики.

-Средняя поселковая школа им.М.Горького Джебраильского района была основана в 1876 г., как начальная, а с 1935/36 учебного года преобразована в среднюю. В школе в настоящее время обучается 700 учащихся, в том числе 320 девочек. Она является одной из лучших в районе. Вот уже 6 лет школа работает без второгодников. Около 50% школьников учатся на "4" и "5". Среди выпускников школы имеется академик, два доктора наук, более 30 кандидатов наук, писатели, Герой Советского Союза и Герой Социалистического Труда.

-Средняя школа им. В.И.Ленина с.Привольное Джалилабадского района была основана в 1875 году. Выпускники указанной школы Горбунов Я., Дмитриев Я.Я., Пономарев О.А., Свиридов Б.М, активно участвовали в борьбе за установлений Советской власти в республике. Затем многие годы педагогический коллектив школы вел большую работу по ликвидации неграмотности среди населения. Среди выпускников школы 5 кандидатов наук, 340 учителей, врачей агрономов, инженеров и т.д. Школа работает на уровне современных требований. Успеваемость учащихся в 1973/74 учебном году составила 99%.

-Средняя школа с.Юхары-Салахлы Казахского района была основана в 1875 году, как пятилетняя, затем стала семилетней, а с 1942/43 учебного года преобразована в среднюю. В настоящее время в школе обучается 759 учащихся, в том числе 377 девочек. Все учителя (41 чел.) выпускники данной школы. Среди выпускников школы три доктора и два кандидата наук, 96 учителей, 22 инженера, 56 агрономов, 88 юристов, врачей, экономистов и т.д.

В звязи с вышеизложенным вносим предложения отметить 100-летие со дня основания вышеуказанных школ:

им. В.И.Ленина с.Привольное Джалилабадского района в ноябре с.г.;

с.Юхары-Салахлы Казахского района в декабре с.г.;

им.М.Горького Джебраильского района в феврале 1976г.

Присвоить группе лучших преподавателей почетное звание "Заслуженный учитель Азербайджанской ССР" - 3 чел.; а также наградить Почетной грамотой Верховного Совета Азербайджанской ССР - 6 чел;

Поручить Минпросу республики подготовить и издать брошюру, посвященную истории школ-юбиляров;

Разрешить Джалилабадскому, Казахскому и Джебраильскому райкомам партии провести районные торжества по случаю 100-летия школ;

Поручить редакциям республиканских газет, радио и телевидения опубликовать статьи и организовать передачи, связанные с организацией и проведением юбилеев школ.

Просим Ваших указаний.

Ф.Ахмедов

## ЦК КП АЗЕРБАЙДЖАНА

В 1975-1976 гг. трем средним школам республики - им. В.И. Ленина с.Привольное Джалилабадского, с.Юхары-Салахлы Казахского, им. М.Горького пос. Джебраил Джебраильского районов исполняется 100 лет со дня их основания.

Каждая из этих школ за свою многолетнюю историю сыграла определенную роль в развитии народного образования республики.

Средняя школа им. В.И.Ленина с.Привольное Джалилабадского района была основана в 1875 г. Выпускники школы Горбунов Я., Дмитриев Я.Я., Пономарев О.А., Свиридов Б.М. активно участвовали в борьбе за установление Советской власти в республике.

Многие годы педагогический коллектив школы вел большую работу по ликвидации неграмотности среди населения. Среди выпускников школы 5 кандидатов наук, 340 учителей, врачей, инженеров, агрономов и т.д. Школа является одной из образцовых в районе. Успеваемость учащихся в 1973/74 учебном году составила 99%.

Средняя школа с.Юхары-Салахлы Казахского района была основана в 1875 г. как пятилетняя, затем стала семилетней, а с 1942/. /43 учебного года преобразована в среднюю. В настоящее время в школе обучается 759 учащихся, в том числе 377 девочек. Все учителя (41 чел.) - выпускники данной школы. Среди выпускников школы три доктора и два кандидата наук, 262 учителя, агронома, инженера, юриста, врача и т.д.

Средняя поселковая школа им. М.Горького Джебраильского района была основана в 1876 г. как начальная, а с 1935/36 учебного года преобразована в среднюю. В школе в настоящее время обучается 700 учащихся, в том числе 320 девочек. Она является одной из лучших в районе. Вот уже 6 лет школа работает без второгодников. Около 50% школьников учатся на "4" и "5". Среди выпускников школы имеется академик, два доктора наук, более 30 кандидатов наук, писатели, Герой Советского Союза и Герой Социалистического Труда.

В связи с вышеизложенным вносим предложение отметить 100-летие со дня основания школ-юбиляров.

Проект решения по данному вопросу прилагается.

Hörmətli Misir müəllim!

Cəbrayıl Rayon İcra Hakimiyyəti Sizə bildirir ki, rayonumuz erməni işğalçıları tərəfindən zəbt ediləndən sonra əhalimiz respublikanın 58 rayonunun 2000 yaşayış məntəqəsində məskunlaşmışdır.

Qaçqın və məcburi köçkünlərin problemlərini ümummilli liderimiz Heydər Əliyev cənabları həmişə özünün bir nömrəli problemi saymış, onun siyasi kursunu layiqincə davam etdirən möhtərəm prezidentimiz İlham Əliyev cənabları da bu prinsipi əsas tutaraq qaçqın və məcburi köçkünlərə daim diqqət və qayğısını əsirgəmir.

Möhtərəm Prezidentimiz İ.Əliyev cənabları bütün sahələrlə yanaşı, təhsilin inkişafı üçün də Dövlət Proqramına uyğun olaraq əlindən gələni edir. Göstərdiyi diqqət və qayğıya görə, cəbrayıllı məcburi köçkünlər adından möhtərəm prezidentimiz İ.Əliyev cənablarına dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Köçkünlük dövrünü yaşayan Cəbrayıl rayon təhsil şöbəsinin ölkənin müxtəlif bölgələrində 47 orta, 5 əsas, 8 ibtidai məktəbi fəaliyyət göstərir.

Torpaqlarımız işğal altında olsa da, akademik M.Mehdizadə adına şəhər orta məktəbin pedaqoji kollektivi öz ənənələrinə sadiq qalaraq təhsilin səviyyəsini respublika göstəricilərinə uyğun şəkildə davam etdirir. Əsası 1876-cı ildə qoyulan və hazırda öz fəaliyyətini Bakı şəhərində - Azərbaycan Texniki Universitetinin yataqxanasında davam etdirən məktəbin bu il 130 yaşı tamam olur.

Hörmətli Misir müəllim! Cəbrayıl Rayon İcra Hakimiyyəti akademik Mehdizadə adına orta məktəbin Azərbaycan Respublikasında 130 yaşı tamam olan üç məktəbdən biri olduğunu nəzərə alaraq, bu məktəbin yubileyinin Təhsil Nazirliyi ilə birlikdə təntənəli keçirilməsini məqsədəuyğun sayır. Siz həmişə belə tədbirlərdə öz müsbət mövqeyinizi bildirmisiniz.

Sizdən xahiş edirik ki, bu məktəbin yubileyinin təntənəli şəraitdə keçirilməsi üçün Zati-Aliləri möhtərəm prezidentimiz İ.Əliyev cənablarını məlumatlandırasınız.

Əlavə məlumatlar toplanması üçün göstərişinizi icra etməyə və tədbirin keçirilməsi üçün birgə işləməyə hazırıq.

Əvvəlcədən Sizə öz minnətdarlığımızı bildiririk.

Hörmətlə M.Quliyev

Azərbaycan Respublikasının
təhsil naziri
cənab M.Mərdanova

Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısı M.Quliyevin akademik M.Mehdizadə adına Cəbrayıl şəhər orta məktəbinin 130 illik yubileyinin təntənəli şəkildə qeyd olunmasına dair Nazirliyə göndərdiyi məkrub Sizin tapşırığınızla araşdırılmışdır.

Nazirliyə təqdim olunmuş məlumatlarda bildirilir ki, 1876-cı il avqust ayının 5-də Qafqaz tədris dairəsi idarəsinin Baş idarəyə yazdığı məktuba əsasən, Cəbrayıl qəzasının Cəbrayıl kəndində bir sinifli rus məktəbi açılmışdı. Bu hadisə Cəbrayıl qəzası üçün müsbət hal olmaqla yanaşı sonralar ətraf kəndlərdə də məktəblərin açılmasına zəmin yaratmışdır.

İlk dəfə məktəbə 34 nəfər şagird qəbul edilmiş və onların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün 1 nəfər müəllim ştatı müəyyənləşdirilmişdir. İlk müəllimi E.Q.Divanov olan bu məktəbin illik xərci 700 manat təşkil edirdi.

1880-ci ildə Səlimbəy Rüstəmbəyov məktəbə müdir təyin edilmiş, 1930-cu ildə məktəb üçün yeni bina inşa edilmiş, 1940-cü ildə məktəbə M.Qorkinin adı verilmişdir. 1976-ci ildə Azərbaycan KP MK-nın qərarı ilə məktəbin 100 illik yubileyi respublika səviyyəsində təntənəli şəkildə qeyd edilmişdir.

1984-cü ildə birtipli layihə əsasında məktəb üçün 1176 yerlik yeni bina inşa edilmişdir. Cəbrayılın işğal gününədək burada 750 nəfər şagirdin təlim-tərbiyəsi ilə 74 nəfər müəllim və 26 nəfər texniki işçi məşğul olmuşdur.

1989-cu ildən məktəb akademik M.Mehdizadənin adını daşıyır.

Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov, Sosialist Əməyi Qəhrəmanı Yusif Fərzəliyev, xalq yazıçısı Sabir Əhmədli bu məktəbin yetirmələridir. 20 ildən çox Nazirlər Sovetində işləmiş Teymur Quliyev, uzun müddət respublika təhsil sisteminə rəhbərlik etmiş akademik Mehdi Mehdizadə, akdemik Əşrəf Hüseynov müxtəlif vaxtlarda bu məktəbdə çalışmışlar. Respublikanın tanınmış alimləri Telman Hüseynov, Çingiz Quliyev, Arif Abbasquliyev, Nadir İsmayılov, Aydın Əsgərov, Dərgah Qüdrətov, Vidadi Xəlilov, Kamil Vəliyev, Əhliman Süleymanov, Həsən Hüseynov, Nailə Hacıyeva və başqaları vaxtilə bu təhsil ocağında oxumuşlar. Hazırda Respublika Milli Bankı İdarə Heyətinin sədri Elman Rüstəmov, Azər Tac-ın direktoru Aslan Aslanov da bu məktəbin yetirmələridir.

1994-cü ildən hal-hazıradək məktəb Yasamal rayonu ərazisində Texniki Universitetin yataqxanasında fəaliyyət göstərir.

Hazırda məktəbdə 130 nəfər şagird oxuyur ki, onların təlim-tərbiyəsi ilə 21 nəfər müəllim məşğul olur.

Görkəmli ziyalıların yetişməsində əhəmiyyətli rolunu, bölgədə təhsilin inkişafındakı xidmətlərini nəzərə alaraq, akademik M.Mehdizadə adına Cəbrayıl şəhər orta məktəbinin 130 illiyinin yubileyinin təntənəli şəkildə qeyd olunmasını məqsədəuyğun hesab edirik.

Razılığımız olduğu təqdirdə yubileyin təntənəli keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciətin mətni Sizə təqdim olunacaq, həmçinin yubileyin vaxtının dəqiqləşdirilməsi üçün Cəbrayıl Rayon İcra Hakimiyyətinə məktub göndəriləcək, eləcə də yubileyə hazırlıqla əlaqədar tədbirlər planının hazırlanması üçün Cəbrayıl Rayon Təhsil Şöbəsinə müvafiq tapşırıq veriləcəkdir. Eyni zamanda yubileylə əlaqədar məktəbin və müəllimlərin təltifi məsələsi ilə bağlı da Sizə təkliflər təqdim ediləcəkdir.

Münasibət bildirməyiniz xahiş olunur.

Hörmətlə İ.İsgəndərov

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRİNİN
ƏMRİ**

*AZ-108, Bakı şəh.. Xətai prospekti. 49 Tel 496 06 47*

*№ 720 , 03.10.2006-cı il*

**Akademik M.Mehdizadə adına məktəbin yubileyinin qeyd olunması haqqında**

Cəbrayıl rayonu akademik M.Mehdizadə adına orta məktəbin 130 illik yubileyinin qeyd olunması ilə əlaqədar

ƏMR EDİRƏM:

1. Cəbrayıl rayonu akademik M.Mehdizadə adına orta məktəbin 130 illik yubileyi 2006-cı il dekabr ayında qeyd olunsun.

2.Yubileyin keçirilməsi ilə bağlı əmrə əlavə olunan tərkibdə təşkilat komitəsi yaradılsın.

3.Təşkilat komitəsinə tapşırılsın ki, məktəbin 130 illik yubileyinin təntənəli şəkildə keçirilməsi ilə əlaqədar iki həftə müddətində tədbirlər planı hazırlayıb təsdiqə təqdim etsin.

4.İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) məktəbin fəaliyyəti ilə bağlı yazıların və bu əmrin əlavə ilə birlikdə «Azərbaycan müəllimi» qəzetində dərc olunmasını təmin etsin.

5.Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə olunsun.

Əsas: Cəbrayıl Rayon İcra Hakimiyyəti Başçısının 01.09.2006-cı il tarixli 439 nömrəli məktubu və rəhbərliyin göstərişi.

Nazir Misir Mərdanov

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin 03.10.2006-cı il
tarixli 720 nömrəli əmri ilə
təsdiq edilmişdir

Cəbrayıl rayonu akademik Mehdi Mehdizadə adına orta məktəbin 130 illik yubileyini keçirən təşkilat komitəsinin tərkibi

**Təşkilat komitəsinin sədri**

İsgəndər İsgəndərov - təhsil nazirinin müavini

**Təşkilat komitəsi sədrinin müavini**

Əli Ağakişiyev – Cəbrayıl RİH başçısının müavini

**Təşkilat komitəsinin katibi**

Sabir Həmidov - Kənd rayonları üzrə ümumi təhsil və məktəbəqədər tərbiyə şöbəsinin baş məsləhətçisi.

**Təşkilat komitəsinin üzvləri:**

Aydın Əhmədov - Kənd rayonları üzrə ümumi təhsil və məktəbəqədər tərbiyə şöbəsinin müdiri

Fərzəli Qədirov - Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri

Bayram Hüseynzadə - İctimaiyyətlə əlaqə şöbəsinin müdiri

Faiq Şahbazlı - Dərslik və nəşriyyat şöbəsinin müdir əvəzi

Validə Həsənova - Cəbrayıl RTŞ-nin müdiri

Alim Babayev - Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Cəbrayıl rayon Komitəsinin sədri

Arif Xəlilov - Cəbrayıl RTŞ-nin aparıcı məsləhətçisi

Müzəffər Sadıqov - akademik M.Mehdizadə adına orta məktəbin direktoru

Azərbaycan Respublikasının Prezidenti
zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm Prezident!**

Sizin yüksək diqqətinizə çatdırırıq ki, Cəbrayıl şəhər akademik Mehdi Mehdizadə adına orta məktəbin yaranmasının 130 ili tamam olur.

Bu təhsil ocağı 1876-cı ildə Cəbrayıl qəzasının Cəbrayıl kəndində bir sinifli rus məktəbi kimi fəaliyyətə başlamışdır. Məktəbin açılması Cəbrayıl qəzası üçün müsbət hal olmaqla yanaşı sonralar ətraf kəndlərdə də məktəblərin təşkilinə zəmin yaratmışdır.

1989-cu ildən məktəb akademik M.Mehdizadənin adını daşıyır.

Cəbrayılın işğal gününədək bu məktəbdə 750 nəfər şagird təhsil almış, 74 nəfər müəllim və 26 nəfər texniki işçi çalışmışdır. Hazırda məktəb Yasamal rayonu ərazisindəki Azərbaycan Texniki Universitetinin yataqxanasında fəaliyyət göstərir. Məktəbdə 130 şagirdin təlim-tərbiyəsi ilə 21 müəllim məşğul olur.

Yarandığı vaxtdan ötən müddət ərzində məktəb Cəbrayıl rayonunda təhsilin, maarifçiliyin təşəkkülündə və inkişafında mühüm rol oynamış, onun məzunlarından xeyli sayda elm, təhsil, mədəniyyət, iqtisadiyyat va digər sahələr üzrə tanınmış mütəxəssislər yetişmişdir.

Cəbrayıl Rayon İcra Hakimiyyəti və Təhsil Nazirliyi məktəbin yubileyinin təntənəli surətdə qeyd olunması ilə əlaqədar tədbirlər müəyyənləşdirmişdir.

Möhtərəm cənab Prezident, Sizin yüksək diqqətinizə onu da çatdırırıq ki, Cəbrayıl rayonunun pedaqoji ictimaiyyəti bu əlamətdar yubiley münasibətilə məktəbin müəllim və şagird kollektivinə Sizin təbrik məktubunuzun göndərilməsini arzulayır.

Münasibətinizi bildirməyi xahiş edirik.

Dərin hörmət və ehtiramla,

Nazir Misir Mərdanov

## ÖN SÖZ ƏVƏZİ

Müstəqil, suveren, azad respublikamız bütün sahələrdə inamla irəliləyir. Azərbaycanda regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı uğurla həyata keçirilir. İctimai inkişaf sürətinə görə gənc Azərbaycan qabaqcıl ölkələr sırasına çıxmışdır. Bu, hər şeydən əvvəl, ölkənin intellektual potensialının tərəqqisinə geniş meydan açır. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İ.H.Əliyev cənabları Zabrat qəsəbəsindəki 307 nömrəli orta məktəbin təntənəli açılış mərasimində proqram xarakterli çıxışında demişdir ki, müxtəlif sahələrdən əldə olunan gəliri biz humanitar sahələrə - təhsilə, səhiyyəyə, yeni texnologiyaların tətbiqinə yönəltməliyik. Uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri ardıcıl izləməli, yaxşı oxumalı, xarici dilləri bilməli, dəyərli vətəndaşlar olmalıdırlar. Bu gün biz xalqımızın tarixi ənənələrini layiqincə yaşatmaq, davam etdirmək istəyiriksə, ölkə strategiyasının əsas istiqamətlərindən olan təhsilimizin sabahı barədə ciddi düşünməliyik. Bunun üçün möhkəm maddi-texniki baza, yüksək hazırlıqlı, intellektual səviyyəli müəllimlər, dünyanın öncül standartlarına cavab verən tədris texnologiyaları, elmi metodik ədəbiyyatlar lazımdır. Bu gün təhsilimizin uğurları göz qabağındadır. Bunu inkar etmək insafsızlıqdır. Orta məktəb dərsliklərinin şagirdlərə pulsuz verilməsinin ilk mərhələsi başa çatdırılmış, məktəb tikintisi və əsaslı təmiri geniş vüsət almış, məktəblərin kompyüterlərlə, ən müasir avadanlıqlarla, kadrlarla təminatı, istedadlı uşaq və gənclərlə iş və digər vacib məsələlər öz həllini tapmaq üzrədir.

Ümummilli liderimiz H.Əliyevin 1999-cu ildə imzaladığı Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı uğurla həyata keçirilir. Üç mərhələni nəzərdə tutan bu mühüm sənədin iki mərhələsi artıq icra edilmiş, ciddi əhəmiyyət daşıyan bir sıra yeni dövlət proqramları hazırlanmışdır. Ulu öndərimizin təhsilin, elmin inkişafı naminə, həyata keçirdiyi qlobal islahatlar kursu 2003-cü ildən onun layiqli davamçısı İ.Əliyev cənabları tərəfindən yüksək səviyyədə və işə bələdliklə davam etdirilir. Son üç ildə respublikada təhsil problemlərinin araşdırılması ilə məşğul olan xüsusi dövlət komissiyasının yaradılması, dövlət büdcəsində bu sahəyə ayrılan vəsaitin ilbəil artırılması və digər tutarlı faktlar bunun əyani sübutudur. Həyata keçirilən bütün tədbirlər nəticə etibarilə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. İslahatlar bilavasitə təlim prosesinin yeniləşdirilməsinə, dünya təhsil sisteminə inteqrasiya olunmasına yol açır. Hazırda ümumtəhsil sistemində məzmun dəyişiklikləri kurrikulum islahatları adı altında aparılır. Yeni kurrikulumun hazırlanması zərurəti bununla əlaqədardır ki, mövcud kurrikulum təhsilin müasir inkişaf tendensiyalarını, davamlı inkişaf amillərini lazımi səviyyədə nəzərə almır, biliklərin tətbiqi aspektinə yönəldilmir. Məhz bu səbəblərdən sözügedən sənədin hazırlanmasına ciddi zərurət yaranmışdır. Bununla belə, bir həqiqət var ki, məktəblərimizi nə qədər ən yeni avadanlıqlarla, müasir

binalarla təchiz etsək də, yetkin, hazırlıqlı kadr amili, onun cəmiyyətdə mövqeyi, nüfuzu ön sıraya keçir.

Təlim-tərbiyə prosesində əsas sima müəllimdir. Bu gün qazanacağımız bütün uğurların, nəticələrin, apardığımız islahatların səviyyəsi, eləcə də təhsilin səmərəliliyinin yüksəldilməsi məhz müəllimlərin fəallığından asılıdır. Belə müəllimlər cənnətməkan Cəbrayılda da az deyildir.

***Mən bilirəm ki, gözəl havası, saf suyu, büllur çeşmələri, əsrarəngiz təbiəti, zümrüd meşələri, əzəmətli dağları, quşqonmaz qayaları, zəngin maddi mədəniyyət abidələri ilə tanınan Cəbrayıl rayonunun tarixi çox-çox qədimlərə gedib çıxır. Bu rayon həm də zaman-zaman böyük alimləri, elm, təhsil, maarif, mədəniyyət xadimləri, əmək və müharibə qəhrəmanları ilə məşhurdur. Pedaqoji elmimizin korifeyi akademik Mehdi Mehdizadə, dünya şöhrətli riyaziyyatçı Əşrəf Hüseynov, Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov bu torpağın yetirmələridir.***

***Cəbrayıl güclü, davamlı kadr potensialına görə başqa rayonlarımıza həmişə nümunə göstərilmiş, adlı-sanlı ziyalıları ilə tanınmışdır. Cəbrayıllılar bütün dövrlərdə dövlətə, dövlətçiliyə, xalqa, millətə, mənəvi-əxlaqi dəyərlərə, azərbaycançılıq ideyalarına sədaqətlə xidmət etmişlər.***

Azərbaycanın başqa regionlarında olduğu kimi, çar Rusiyası dövründə Cəbrayıl qəzasında da kəndli balalarının savadlanması qayğısına qalan yox idi. Fəqət, bu biganəlik, haqsızlıq uzun sürə bilməzdi. Əhali Cəbrayıl qəzasının Cəbrayıl kəndində birsinifli normal rus məktəbi açılanadək nə qədər əzab-əziyyətlərə qatlaşmışdır. Birsinifli məktəbdən möhtəşəm bir tədris müəssisəsinə çevrilməsinə qədər uzun və şərəfli inkişaf yolu keçən 1 nömrəli Cəbrayıl şəhər orta məktəbinin adı həmişə qabaqcıllar cərgəsində çəkilmişdir. Məcburi köçkünlük şəraitində yaşayıb fəaliyyət göstərməsinə, hər cür çətinliyə, imkansızlığa baxmayaraq, qocaman tədris ocağı bu gün də şanlı ənənələrinə sadiq qalaraq təhsil sistemində aparılan islahatların həyata keçirilməsində, vacib problemlərin həllində öncül mövqeyini qoruyub saxlamaqdadır.

Erməni faşistlərinin mövcud maddi-mədəniyyət abidələrimizin, milli mənəvi sərvətlərimizin həyasızcasına özününküləşdirməyə cəhd göstərdiyi bir dövrdə sözügedən təhsil ocağının 130 illik yubileyinin keçirilməsi çox vacib məsələdir. Əminlik hissi ilə deyə bilərəm ki, akademik M.Mehdizadənin adını ləyaqətlə daşıyan bu elm-təhsil məbədi öz sağlam, əbədiyaşar ənənələrini uğurla davam etdirəcəkdir. Mən 130 yaşı tamam olan məktəbin işküzar pedaqoji kollektivinin intəhasız sevincinə qoşuluram. Məktəbin yenilik hissilə yaşayan müəllimlərini və rayonun bütün pedaqoji kollektivlərini yubiley münasibətilə ürəkdən təbrik edirəm, onlara gənc nəslin kamil insan, fəal vətəndaş kimi yetişdirilməsi naminə, yeni-yeni uğurlar diləyirəm! Arzum budur ki, qocaman məktəb növbəti yubileylərini doğma rayonunda, ata-baba yurdunda keçirsin.

**Misir Mərdanov,**

**Azərbaycan Respublikasının Təhsil naziri**

# CƏBRAYILIN TARİXİ KEÇMİŞİ HAQQINDA

Şəriət risalələrində deyilir: "Cənnət torpağı gümüşdən hazırlanmış ağ mərmərə bənzər. Çınqılı mirvari və yaqut, tozu zəfərandır. Ora düşən səadətə çatar, ümidsiz olmaz, əbədi yaşayar. Cənnətdə dadı dəyişməyən sudan irmaqlar, təmi çönməyən süddən çaylar var. Uca Allah cənnətə ab - Kövsər çayı bəxş edib ki, ondan içən bir daha susamaz. Suyu baldan şirin, süddən ağdır ".

Bu ilahi kəlamları oxuyanda istər istəməz əsrarəngiz gözəlliklər diyarı, heyrətamiz maddi-mənəvi sərvətlər məskəni Cəbrayılımız yada düşür. Tarixi kökü lap qədim dövrlərə gedib çıxan bu ulu diyarın təkcə adının yaranmasında nə qədər sirlər, müəmmalar gizlənmişdir...

Cəbrayıl rayonu Azərbaycan Respublikasının cənubunda Kiçik Qafqaz dağlarının cənub şərqində, Araz çayının sol sahilində, cənub tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir. Qarabağın öz dilbər guşələri ilə seçilən buz bulaqları, zümrüd meşələri, əzəmətli dağları, zəngin tarixi-mədəni abidələri ilə yadda qalan gözəl yerlərindən biridir bu torpaq.

İran tarixçisi Həmdullah Qəzvininin (XIII-XIV əsrlər), Azərbaycan tarixçiləri A. Bakıxanov, Əhməd bəy Cavanşir, Mirzə Camal Cavanşir, Mirzə Adıgözəl bəy və başqalarının əsərlərində zəngin tarixi keçmişi olan Cəbrayıl haqqında qiymətli məlumatlara rast gəlinir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Qasım bəy Zakir, Cəlil Məmmədquluzadə vaxtilə Cəbrayıl qəzasının əhalisinin güzəranı, onların adət-ənənələri, mədəniyyəti barəsində maraqlı fikirlər söyləmişlər.

Alimlərin fikrincə, Cəbrayıl əraziləri insanın formalaşdığı yerlərdən biri olmuşdur. Belə ki, məşhur Azıx mağarasının Cəbrayıl qəzası ərazisində olması, eyni zamanda Dağtumas kəndi yaxınlığındakı yaşayış üçün təbii məhsulların və əmək alətlərinin bol olduğu "Nəfəsli dərə" deyilən ərazidə yerləşən "Divlər sarayı" mağarası deməyə əsas verir ki, ibtidai insanın yaşadığı yerlərdən biri də məhz Cəbrayıl ərazisidir. Bəzi tədqiqatçılara görə, Azıxda yaşayan ulu əcdadlarımızla "Divlər sarayı"nda yaşayan qədim insanlar arasında müəyyən əlaqələrin olması istisna deyildir.

Rayonun Diridağı zonası, Ziyarət və Gordubaba dağ əraziləri yaşayış üçün əlverişli olmuşdur. Bunlar bitki örtüyü ilə daha zəngindir. Diridağın cənub ətəklərində, Arazboyu zolaqlarında, Qız qalası yaxınlığında, hətta XX əsrin əvvəllərinə qədər də keçilməz meşələr var imiş.

Fikrimizcə, bu dağın Diri adlandırılması da burada insanın yaşaması üçün hər şəraitin olması ilə bağlıdır. Şübhəsiz ki, hələ Cəbrayıl yer adının formalaşmasından çox-çox əsrlər öncə bu torpağın insanları ayrı-ayrı yaşayış məskənləri salmışlar.

Cəbrayıl rayonunun adı rayonun mərkəzi olan Cəbrayıl kəndinin adından götürülmüşdür. Bu adı İslamda və monoteist dinlərdə Allaha ən yaxın mələk olan Cəbrayılın adı ilə əlaqələndirənlər də vardır. Cəbrayıl sözü ərəb dilində "Allahın qulu", məcazi mənada Allaha yaxın olan adam deməkdir.

Cəbrayıl əraziləri ən qədim dövrdən Azərbaycanda mövcud olmuş müxtəlif dövlətlərin - e.ə. VII-IV əsrlərdə Midiya dövlətinin, e.ə. IV-III əsrlərdə Əhəmənilər imperiyasının, daha sonralar Səlcuqların, eləcə də Pazkank, Əhəristan, Duzaq adlandırılan mahalın tərkibində idi. 971-1086-cı illərdə Şəddadilərin, 1250-ci ildə monqolların, 1387-ci ildə Teymurilərin, 1412-ci ildə Qaraqoyunluların, 1478-ci ildə Ağqoyunluların, 1501-ci ildə Səfəvilərin tərkibində olmuşdur.

Bu kəndin əsasını qoymuş Cəbrayıl ata təxminən VIII-IX əsrlərdə yaşayan, Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarından biri olmuş və Ziyarət dağından Araz çayına qədər ərazilər Cəbrayıl ataya və onun övladlarına məxsus olmuşdur. Hazırda bu ərazilərdə yerləşən Mirzəcanlı, Yarəhmədli, Hasanlı, Maşanlı, Xubyarlı və digər kəndlər də, deyilənlərə görə, onun övladlarının adı ilə bağlıdır. Bu müqəddəs şəxs hələ öz sağlığında böyük hörmət və nüfuz sahibi olduğundan, vəfat edərkən öz mülkünün axar-baxarlı bir yerində - Alpaşa dağının üstündə dəfn edilmiş və üzərində məqbərə tikilmişdir.

Cəbrayılın "ağa", "müqəddəs şəxs", nəhayət, "ata" adlandırılması sübut edir ki, o, həqiqətən, bu ərazilərin çox nüfuzlu adamı, doğma elini sevən, övladlarına, təbəələrinə doğru yol göstərən xeyirxah bir el ağsaqqalı imiş. Bu səbəblərə görə, Cəbrayıl ata ümumi qəbiristanlıqda deyil, o dövrün adətinə uyğun olaraq ona məxsus torpaqların lap yuxarı başında - Alpaşa dağının hündür və tamaşalı bir yerində ayrıca dəfn olunmuşdur.

Maraqlıdır ki, XIX əsrdə Cəbrayıl kəndinə gəlmiş və "Cəbrayıl ata" məqbərəsini də görmüş milliyyətcə erməni N. Kokçayev və M. Barxudaryan bu abidədə xaç işarəsinə rast gəlmədikləri halda (xaç işarəsini görsəydilər, yəqin ki, fürsəti əldən verməyib bunu tutarlı bir dəlil kimi mütləq yazardılar), qəribədir ki, sonralar burada xaç işarəsi peyda olmuşdur. Əlbəttə, bu heç də təəccüblü bir şey deyildir. Çünki erməni "tədqiqatçıları"nın qədim Azərbaycan abidələrini özününküləşdirmək məqsədi ilə onların üstündə erməni əlifbası ilə müəyyən sözlər yazmaları, xaç işarələri qoymaları, buna imkan olmadıqda isə abidələri uçurub-dağıtmalarına çox rast gəlmişik. Cəbrayıl ata məqbərəsi Qarabağın dağlıq hissəsində, erməni kəndlərinin yaxınlığında olduğundan erməni "tədqiqatçıları" bu abidəni də öz ibadətgahlarına çevirmək məqsədi ilə onun üzərində sonralar xaç işarəsi həkk etmişlər.

Cəbrayılın "ata" adlandırılmağa layiq nüfuzlu bir şəxs olmasını təsdiq edən faktlardan ən mühümü onun adını daşıyan Cəbrayıllı tayfasının mövcudluğudur. Cəbrayıllı tayfası haqqında məlumatlara A.Bakıxanovun, Mirzə Həsən Əfəndinin əsərlərində, XIX əsrdə yazılmış bir çox kitab və rəsmi dövlət sənədlərində, habelə akademik S. Sumbatzadənin və tarix elmləri doktoru S. Onullahinin tədqiqatlarında

rast gəlirik. Belə görünür ki, Cəbrayıl hələ öz sağlığında "ata" kimi tanınan el ağsaqqalı olduğu kimi, onun övladları da öz dövrlərinin sayılan adamları imiş, zaman keçdikcə onların törəmələri artıb-çoxalmış, nəhayət, bir tayfa kimi təşəkkül tapmışdır. Cəbrayılın nəslinin sonralar böyük bir tayfaya çevrilməsində keçmiş zamanlardan bu ərazilərə köçüb gəlmiş türk tayfa və tirələrinin də rolu az olmamışdır.

Qarabağ xanlığı dövründə Cəbrayıllı tayfasının nüfuzu elə artmışdı ki, hətta İbrahimxəlil xan Cəbrayıl bəylərindən birinin qızı ilə evlənmişdi. Rus generalları və İran şahzadəsi Abbas Mirzə də Cəbrayıllı tayfasını həmişə öz tərəflərinə çəkməyə çalışmışlar.

Cəbrayıllı tayfası və bu tayfaya daxil olmayan kəndlərin əhalisi Azərbaycanda yaranmış siyasi vəziyyətlə əlaqədar XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu, XVI-XVII əsrlərdə qızılbaşlar və şahsevənlər, XVIII əsrdə əfşarlar, nəhayət, Cavanşir tayfa ittifaqlarının tərkibinə daxil idilər. Ona görə də tədqiqatçıların bəziləri cəbrayıllıları gah Cavanşir, gah da Əfşar tayfasının bir tirəsi kimi qələmə verirdilər. Lakin Cəbrayıllı tayfası tayfa ittifaqlarına daxil olsa da, həmişə öz daxili bütövlüyünü qoruyub saxlayırdı. Sonralar ayrı-ayrı kəndlərin böyüməsi ilə əlaqədar tayfalar öz əhəmiyyətini itirdiyindən, eləcə də "tayfa" sözü "kənd" sözü ilə əvəz edildiyindən XIX əsrin 30-cu illərindən sonrakı yazılı mənbələrdə və rəsmi dövlət sənədlərində Cəbrayıllı tayfasının adına rast gəlinmir.

Cəbrayıl ərazisində dünya memarlıq sənətini bəzəyən, Azərbaycan memarlıq tarixində özünəməxsus yer tutan çoxlu monumental abidələr - körpülər, qalalar, türbələr, gümbəz və məscidlər vardır. Bu gün o abidələr nankor qonşularımızın murdar ayaqları altında inləməkdə, erməni vandalizminin dünyaya sığmayan vəhşiliklərinin şahidi olmaqdadır.

Cəbrayıl ərazisində yerləşən və ermənilər tərəfindən işğal edilən abidələrdən biri dünya memarlıq sənətinin ən nadir incilərindən olan Xudafərin körpüləridir. Araz çayı üzərində ucalan bu möhtəşəm abidələrin biri 11, digəri isə 15 aşırımlı körpülərdir. On bir aşırımlı körpünün uzunluğu 130, eni 6, hündürlüyü 12 metrdir. On beş aşırımlı körpününsə uzunluğu 200, eni 4, 5, hündürlüyü 10 metrdir. Körpülər bir-birindən 800 metr aralı tikilmişdir. Onların tikinti texnikası və tarixi haqqında müxtəlif fikirlər söylənməkdədir.

On bir aşırımlı körpünün daha qədim olması, onun Əhəmənilər imperiyası zamanında, e.ə. VI -III əsrlərdə ağacdan tikilməsi, sonralar XII əsrdə Eldəgəzlər hakimiyyəti dövründə yenidən qurulması söylənilir. 15 aşırımlı körpünün isə eramızın I əsrində inşa edilməsi, XIII əsrdə Elxanilər dövründə yenidən bərpa edilməsi alimlərimiz tərəfindən təsdiq edilmişdir.

Xudafərin körpüləri Azərbaycan inşaatçılarının müstəsna mühəndislik qabiliyyətinin ən gözəl nümunələrindən biridir. Hər iki körpünün ayrı-ayrı tağlarını birləşdirən sütunların hər biri çayın içərisində olan sal qayaların üzərində tikilmişdir. Bu da körpülərin bünövrəsinin əbədiliyinin təminatıdır. Xudafərin

"xuda" və "afərin" sözlərindən ibarətdir. "Xuda" - Allah deməkdir, "afərin" isə alqış, mərhəba mənasını verir. İfadə bütövlükdə farsca "Allah tərəfindən yaradılmış", "Allaha alqış", "Allaha mərhəba" deməkdir. Bu körpülərin Hindistandan tııtmuş Yaxın və Orta Şərqlə Şimali Azərbaycan, bütün Zaqafqaziya və Dərbənd vasitəsilə Rusiya və Qərbi Avropa ölkələri arasında ticarət əlaqələrinin inkişafı, qədim İpək Yolunun müntəzəm fəaliyyətdə olması, Azərbaycanın cənubu ilə şimalının iqtisadi və mədəni əlaqələri üçün müstəsna əhəmiyyətinə şahidlik edir.

Bunlardan başqa, Cəbrayıl çoxlu digər arxeoloji və tarixi memarlıq abidələrilə zəngindir. Qalacıq kəndində "Məscid təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Tatar kəndi yaxınlığında e.ə III minilliyə aid siklop tikintiləri, Dağtumasda "Başıkəsik kümbəz", Sirikdə "Qala", Çələbilər kəndində məscid-mədrəsə kompleksi, Şıxlar kəndində "Dairəvi türbə", Xubyarlıda Dairəvi və Səkkiz guşəli türbələr belə maraqlı sənət əsərləridir.

***

Cəbrayıl torpağı Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, ictimai fikir tarixinə nadir şəxsiyyətlər vermişdir. Azərbaycan aşıq poeziyasının yaradıcısı **Dirili Dədə Qurbani** məhz bu torpaqda doğulmuş, burada boya-başa çatmışdır. Alimlərimizin çoxsaylı mülahizələrindən sonra belə qənaətə gəlinmişdir ki, Qurbani təxminən 1477-ci ildə Diri dağının ətəklərində yerləşən keçmiş Diri kəndində anadan olmuş, başı qalmaqallar çəksə də, təxminən 70-71 il ömür sürmüş, 1548-ci ildə doğulduğu kənddə dünyasını dəyişmiş, sevgilisi Pəri ilə birlikdə Diri dağının hündür bir yerində dəfn edilmişdir.

Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai və onun oğlu I Təhmasibin hakimiyyəti illərində yaşayıb-yaratmış, onların sarayına yaxın olmuş, şeri, ədəbiyyatı sevən, özü də gözəl şeirlər yazan Xətai ilə şəxsən tanış olmuşdur.

Qurbani öz şeirlərində vətəni, doğma torpağı, təbiəti sevgi və məhəbbət hissilə, xüsusi bir məftunluqla tərənnüm etmişdir. Böyük el sənətkarı haqqın, ədalətin təntənəsinə inanırdı. Qurbani aşıq şerinin əksər formalarında əsərlər yazmış, özü də novator sənətkar kimi ədəbi formaya yenilik gətirmiş, divani şeir formasını yaratmışdır. Bunlardan ən məşhurları Şah İsmayıl Xətainin ölümünə yazdığı mərsiyə-divanilərdir.

XIX əsrdə Cəbrayılın Azərbaycan poeziyasına bəxş etdiyi nadir simalardan biri də **Aşıq Pəridir.** O, Araz qırağında yerləşən Maralyan kəndində doğulmuşdur. Firidun bəy Köçərli yazır ki, Aşıq Pəri ibtidai təhsilini öz kəndində almış, özü də əhli-hal, sahibcamal bir xanım olmuşdur.

Aşıq Pərinin həyatı haqqında da müxtəlif versiyalar söylənməkdədir. Bəzi tədqiqatçıların fikrincə, Aşıq Pəri yetkinlik dövründən sonra Şuşada yaşamış, orada da dünyasını dəyişmişdir. Lakin Aşıq Pəri haqqında aparılmış son tədqiqatlardan məlum olmuşdur ki, o, 1813-cü ildə bu kənddə anadan olmuş, 1848-ci ildə isə doğulduğu kənddə vəfat etmişdir. Qəbri Karxulu kəndinin qədim qəbiristanlığında

yerləşir. İşğal dövrünə qədər onun qəbri üstündə kiçik bir məqbərə - abidə də ucaldılmışdır.

Sonrakı dövrlərdə yaşayıb-yaratmış **Aşıq Mahmud, Mücrüm Kərim, Bağban Məhəmməd, Aşıq Surxay, Aşıq Humay, Aşıq Abdulla** kimi el sənətkarları da Cəbrayılın yetirmələridir.

***

Hələ orta əsrlərdə Cəbrayılda təhsil yüksək səviyyədə idi. Bütün Qarabağda öz təsir dairəsi ilə tanınan Çələbilər məscid-mədrəsə kompleksi geniş şəkildə fəaliyyət göstərirdi. Mollaxana məktəbi kimi fəaliyyət göstərən məscidin həyətindəki hücrələrdən sinif otaqları kimi istifadə olunurdu. Burada dövrün ən tanınmış din xadimləri, alimləri dərs keçirdilər. Bu mədrəsəni bitirən məzunlar Şərqin bir sıra nüfuzlu dini məktəblərinə göndərilir, Nəcəf, Bağdad, Tehran və digər şəhərlərdə fəaliyyət göstərən ruhani məktəblərində təhsillərini davam etdirirdilər. XVIII əsrdə yaşamış böyük Azərbaycan şairi Molla Vəli Vidadinin də bu mədrəsədə dərs deməsi artıq bir sıra tutarlı ədəbi-tarixi dəlillərlə sübuta yetirilmişdir.

1841-ci ildə Qarabağ əyaləti, o cümlədən Cəbrayıl ərazisi mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə yeni yaradılmış Şuşa qəzasının tabeliyinə verildi. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tabeliyindən çıxarılaraq Yelizavetpol (Gəncə) quberniyasının tərkibində müstəqil Cəbrayıl qəzası təşkil edildi. Qəzanın məhz Cəbrayılda yaradılması təsadüfi deyildi. Şuşa qəzasının ərazisi böyük olduğundan qəza idarələri ilə, xüsusilə Cəbrayılın Arazboyu məntəqələri ilə əlaqə saxlaya bilmirdi. Cəbrayıl kəndi strateji cəhətdən əlverişli mövqedə olduğundan rus hərbi qarnizonu hələ 1802-ci ildə burada hərbi şəhərcik salmışdı. Xudafərin karvan yoluna nəzarət edən Karantin-Gömrük idarəsi və çar hökumətinin müvəkkili bu kənddə idi.

Yeni yaradılmış Cəbrayıl qəzasının sahəsi 66,6 min kv km, əhalisi 66,360 nəfər idi (1897). Qəza indiki Cəbrayıl, Füzuli, Xocavənd rayonlarının, Qubadlı rayonunun Xanlıq kəndindən Araza və oradan da Zəngilan rayonunun Bartaz kəndinə qədər əraziləri əhatə edirdi. Qəzanı Yelizavetpol qubernatoru tərəfindən təyin edilmiş rus zabiti idarə edirdi. Onun müavini, xəzinədarı, polis idarəsi, poçt-teleqraf kontoru, meşəbəyiliyi, məhkəmə idarəsi və s. var idi. Bu idarələrdə əsasən mürtəce əhval-ruhiyyəli əhlikef rus məmurları qulluq edirdilər. İnzibati idarələrdə az da olsa, yerli əhalidən işləyənlər də var idi.

Qəza Cəbrayıl, Horadiz və Bəhmənli polis məntəqələrinə bölünmüşdü. Sonralar Xanlıq və Bartaz kəndləri olan zonalarda da dairələr təşkil edildi. Polis məntəqələrini qəza rəisinin təyin etdiyi pristavlar, kəndləri isə yüzbaşılar, kəndxudalar və bəylər idarə edirdilər. 1887-ci ildə Cəbrayıl - Ağdam poçt yolu salındı.

Təbii ki, Cəbrayıl qəza mərkəzi kimi fəaliyyətə başlayandan sonra burada sosial-iqtisadi sahədə müsbət dəyişikliklər, inkişaf özünü göstərməkdə idi.

Xüsusilə ticarət daha geniş şəkildə inkişaf edirdi. Cəbrayılın o dövrün karvan yolunun üstündə olması, Xudafərin körpüləri və burada yerləşən karantin - gömrük məntəqəsi qəzanın iqtisadi – mədəni həyatının fəallaşmasına kömək edirdi. XVIII əsrdən başlayaraq Şamaxı Cavad - Xudafərin, İran - Maralyan - Cəbrayıl, Maralyan - Meşkin - Lori - Təbriz, Xudafərin – Maralyan - Cəbrayıl karvan yolları fəaliyyət göstərirdi.

Çar hökuməti dövründə qəzada maarifin, mədəniyyətin və ümumiyyətlə, iqtisadiyyatın digər sahələrində bir durğunluq hiss olunsa da, Sovet hakimiyyəti illərində Cəbrayıl rayonu hər sahədə misli görünməmiş dərəcədə inkişaf etdi. 1932-ci ildən qəza ləğv edilərək Cəbrayıl rayonu inzibati ərazisi yaradıldı. 1941-1945-ci illər müharibəsində itkilər verən bu elin-obanın insanları ruhdan düşmədilər. Yeni-yeni kənd təsərrüfatı və sənaye obyektləri yaradıldı. Əhali xoşbəxt, firavan həyat tərzi keçirməyə başladı.

Cəbrayıl rayonunun ərazisi sement, mərmər, mişar daşı və digər qiymətli tikinti materialları ilə zəngindir. Əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul idi.

Elmin, mədəniyyətin, maarifin inkişafı yüksək səviyyəyə çatmışdı. Rayonda 510 çarpayılıq xəstəxanalarda 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi çalışırdı.

Azərbaycanda eramızın I əsrindən yaradılmış kəhriz şəbəkəsindən Cəbrayılda daha geniş şəkildə istifadə olunurdu. Respublikamızda olan 813 kəhrizin 118-i Cəbrayılın payına düşür. O cümlədən rayonda 360-dan çox dişgöynədən, təbii minerallarla zəngin bulaqlar vardır. Rayon ərazisindəki iki böyük suvarma kanalı "Teymur Quliyev" və "Maralyan" kanalları kənd təsərrüfatının intensiv inkişafını təmin edirdi. Rayonda 4039 hektar meşə zolağı, 58 585 hektar əkin sahəsi, 1079 hektar bağ sahəsi vardı. Bütün bunlar 1993-cü il avqust ayının 23-də əzəli və əbədi düşmənlərimizin tapdağı altına keçdi. 1050 kv km-i əhatə edən, 52604 nəfər əhalisi olan rayon ərazisi və bu ərazilərlə birlikdə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd büsbütün ermənilərin işğalına məruz qaldı, vəhşicəsinə dağıdıldı.

***

1876-cı ildə Cəbrayıl qəza mərkəzi kimi fəaliyyətə başlayandan sonra həyatın bir sıra sahələrində müəyyən dəyişikliklər nəzərə çarpdı. İqtisadiyyat və ticarətin inkişafında irəliləyişlər hiss olundu. Lakin maarifin, mədəniyyətin inkişafı yenə də ləngiyirdi. Bu da təbii idi. Çar hökuməti heç vəchlə razılaşa bilmirdi ki, qədim ucqarlar hesab edilən bu əyalət bölgələrində ictimai şüurda yenilik, irəliləyiş, oyanış və dirçəliş özünü göstərsin. Əslində bu, çarizmin müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. Lakin mövcud çətinliklərə, təqib və təzyiqlərə baxmayaraq, XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın bir sıra

bölgələrində olduğu kimi, Cəbrayıl qəzasında da maarifpərvər insanlar dünyəvi elmləri öyrədən yeni tipli məktəblərin açılmasını tələb edirdilər.

## BİRSİNİFLİ NORMAL RUS MƏKTƏBİ NECƏ YARANDI

Mədəniyyət, ədəb-ərkan, kamillik, təhsil, əqidə, bilik anlayışlarını özündə ehtiva edən "MƏKTƏB" sözü və özü əlahiddə, sirli-sehirli bir aləmdir. Dünyanın içində bir dünya olan məktəbin özünəməxsus kainatı, səması, ayı, günəşi, sayrışan ulduzları, barı-bəhəri, "gülşən-gülşən lətafəti, rövşən-rövşən səadəti" var.

Zamanın hər dönəmində gur yanan, fəqət gec qızdıran tonqaldı, erkən əkilən, lakin gec meyvə verən qollu-budaqlı, möhtəşəm ağacdı məktəb. O da insan kimidir. Doğulur, böyüyür, kamala yetir, müqəddəsləşir, müdrikləşir. Təkcə yaşamır, həm də yaşadır, ölmür, bütün dövrlərdə cavan qalır. Gur məşəl tək daim bəşər övladının yoluna şölə saçır, onun qəlbinə, zehninə, həyat yoluna nur çiləyir.

***Bu işıq seli qəza mərkəzlərinin, eləcə də Cəbrayılın yerli əhalisinin qaranlıq, zülmət dünyasının səmasında da görünməli idi və Azərbaycanın maarifpərvər, qeyrətli ziyalılarının böyük səyi nəticəsində göründü də. Onlar azərbaycanlı uşaqlar üçün kəndlərdə, xüsusilə qəza mərkəzində məktəb açılmasının zəruriliyini ortaya qoydular.***

***Çox yazışmalardan, rəsmi müraciətlərdən sonra çar hökuməti, axır ki, Zaqafqaziyada dövlət hesabına bir neçə normal kənd məktəbi açmağa qərar verdi. Həmin qərar "Zaqafqaziyada tədris hissəsinin təşkili haqqında" hökumətin 1873-cü il 22 noyabr tarixli qanunu ilə həyata keçirildi.***

Məktəblərdə təlim yalnız rus dilində aparılmalı idi. Bu əlahiddə göstəriş yoxsulların qayğısına qalmaqdan daha çox çar məmurlarının və hakim siniflərin balalarının savadlanmasını nəzərdə tuturdu. Bununla belə, etiraf etmək lazımdır ki, rus dili və mədəniyyəti ilə yaxından tanışlıq sonralar Azərbaycanın müxtəlif əyalətlərində ümumtəhsil məktəblərinin açılmasına etibarlı zəmin yaratdı.

1876-cı il avqust ayının 5-də Qafqaz tədris dairəsi idarəsinin baş idarəyə göndərdiyi məktubda Yelizavetpol (Gəncə) quberniyasında, Qazax qəzasının Dağ Kəsəmənli kəndində, Zəngəzur qəzasının Gorus kəndində, Cəbrayıl qəzasının Cəbrayıl kəndində də məktəblər açılması xahiş olunurdu. Dairə idarəsinin rəisi öz istəyini burada çalışan məmurların uşaqlarının ibtidai təhsildən kənarda qalması ilə əsaslandırırdı. Həmin məktubda həm də göstərilmişdi ki, sözügedən kənd icmaları məktəb üçün lazımi bina və müəllimlər üçün yaşayış evi tikməyi öz öhdələrinə götürürlər.

Bu istək, axır ki, reallaşdı. ***1876-cı ildə Cəbrayıl qəzasının Cəbrayıl kəndində birsinifli normal rus məktəbi fəaliyyətə başladı.*** Birsinifli normal rus məktəbinin varlığı sonralar ətraf kəndlərdə də tədris müəssisələrinin açılmasına imkan yaratdı. Məktəbin tədris planına şəriət, rus dili, Azərbaycan dili, hesab, hüsnxət və rəsmxət fənləri salınmışdı. Məktəbə 34 şagird qəbul olundu. Müəllim

ştatı 1 nəfərdi. Məktəbin illik xərci isə 700 manat məbləğində hesablandı. Bu qədər vəsaitin 400 manatını yerli əhali ödəməli idi. Məktəbə ilk dəfə müəllim E.Q.Divanov təyinat aldı. Müəssisə əvvəlcə yararsız, darısqal, rütubətli bir binada yerləşirdi. Bu dözülməz şərait məktəbə yeni şagirdlərin qəbulunu əngəlləyirdi.

Bir çox çatışmazlıqlara baxmayaraq, Cəbrayılda yeni tipli ümumtəhsil müəssisəsi olan həmin məktəb qəza ərazisində yeganə maarif-mədəniyyət ocağı sayılırdı. 7 ildən sonra ikisinifliyə çevrilən məktəbdə uzun müddət başqa millətin nümayəndələri dərs demişlər.

## BİR SIRA KƏND MƏKTƏBLƏRİNİN AÇILMA TARİXİ

### LƏNKƏRAN QƏZASINDA

Andreyevka – 1857
Asrtaxanka – 1857
Nikolayevka – 1860
Prişib – 1860
Privolnı – 1873
Novoqolsk – 1885
Pravaslavnı – 1885
Qızıl Ağac – 17.II.1896
Masallı – 28.X.1896
Mahmudlu – 8.XII.1896

### GÖYÇAY QƏZASINDA

Göyçay – 1878
Məlikkənd – 1885
İvanovka – 1887
Lahıc – 1888
Qalaqayın – 10.X.1899

### ŞAMAXI QƏZASINDA

Xılmıllı – 1860
Mərəzə - 1866
Altıağac – 1879
Kürdəmir – 1885
Kerkenc – 1885
Basqal – 1887
Çuxuryurd – 1887
Gürcevan – 1887
Külvə – 1887
Dilman – 1887

Kəleybuğurd – 1887

**ŞUŞA QƏZASINDA**
Ağdam – 12.IX.1883
Lənbəran – 18.IX.1883
Ağcabədi – 1883
Hindarx – 1884
Tuğ – 1885
Gülablı – 1885
Xankəndi – 1897
Tağ - 1897

**CƏBRAYIL QƏZASINDA**
Cəbrayıl -1876
Qarğabazar - 17.X.1883
Hadrud -1885
Qarabulaq -1897

**NUXA QƏZASINDA**
Qutqaşen – 12.IX.1882
Xaçmaz – 28.X.1883
Vəndam – 30.X.1883
Padar – 1.XI.1883
Göynük – 1884
Qoxmux – 1884
Vartaşen –1887
Bum – 1890
Nic –29.IX.1898
Yaqublu – 30.IX.1898
Ağpiləkənd – 30.IX.1898
Göybulaq – 1.X.1898
Daşbulaq – 2.X.1898

Yeni tipli məktəbdə azərbaycanlı uşaqlar az idi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, 1895- ci ildə burada oxuyan 91 nəfər şagirddən yalnız 4-ü azərbaycanlı idi. Hər şagird ildə üç manat təhsil haqqı ödəməli idi. Ətraf kəndlərdən oxumağa gələnlər yataqxanada qalırdılar. Yataqxana xərci ildə altı manat müəyyən edilmişdi. Bir fakt da maraqlıdır ki, 1910-cu ilədək məktəbdə yalnız oğlanlar təhsil almışlar.

Yəqin ki, təhsilin və yataqxananın ödənişli olması səbəbindən bu məktəb öz qapılarını uzun müddət zəhmətkeş balalarının üzünə aça bilməmişdir. Üstəlik, din xadimləri də uşaqların məktəbdə oxumalarına müxtəlif vasitələrlə mane olmuşlar.

Onlar uşaqları yalnız mollaxanalara cəlb etmək üçün ən çirkin işlərə əl atmışlar. Məxəzlərin məlumatına görə, 1893-1894-cü illərdə qəzadakı 16 mollaxanada 160 nəfər uşaq mənasını bilmədiyi şəriət qanunlarını əzbərləməyə məhkum edilmişdi. Bunlardan 20 nəfəri qız uşağı idi. Normal məktəbdə oxuyan şagirdlərdən təkcə 1 nəfəri aşağı təbəqədəndi.

1896-cı ildə məktəbdə təlim-tərbiyə alan şagirdlərin sayı təqribən 120-yə çatdı. Bu da o dövr üçün irəliləyiş, tərəqqi sayılırdı. Kənd yerlərində ümumtəhsil məktəbləri şəbəkəsinin ilbəil genişləndirilməsi hakim dairələrin istək-arzusunun deyil, gənclərin təhsilə, maarifə, mədəniyyətə ehtiyac və marağının əməli nəticəsi idi. Bir sıra kəndlərdə yerli əhali məktəbin xərcini öz üzərinə götürməyə başlamışdı.

Qəzanın ən böyük kəndi olan Qarğabazarda 1883-cü ildə, Hadrutda isə 1885-ci ildə məktəb açılması yeni tədris müəssisələrinin də açılmasına zəmin yaratdı.

Cəbrayıldakı ikisinifli normal məktəb ikimərtəbəli daş binada yerləşmişdi. Birinci mərtəbədə dərs keçilir, ikinci mərtəbədə isə müəllimlər yaşayırdılar. Siniflər təmirsiz və rütubətli olsa da, dərs otaqlarının vəziyyəti digər məktəblərdəkindən daha münasib idi. Tədris ocaqlarının uçuq-sökük, nəmişli, əlverişsiz otaqlarda olması, sinif otaqlarının çatışmaması hökumət məmurlarını qətiyyən maraqlandırmırdı. 1893-94-cü illərdə qəzanın ərazisindəki normal rus məktəbində 340 şagird oxuyurdu. Bunların 72-si qız idi. Şagirdlərin getdikcə artmasına baxmayaraq, bütün məktəblərdə müəllim kadrlarına ciddi ehtiyac vardı. Kadr çatışmazlığı təbii ki, tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi.

Cəbrayıl kəndindəki normal rus məktəbi ilk "qaranquş" kimi, qəzada pedaqoji-metodiki mərkəz sayılırdı. 1895-ci ildə Cəbrayıldakı kənd məktəb müəllimlərinin sahə qurultayı sözügedən məktəbdə çağırılmışdı. Məktəbin keçmiş məzunlarının dediklərinə görə, 1910-cu ildə Cəbrayıl normal məktəbində I - III siniflərdə 1 müəllim, IV-V siniflərdə isə başqa bir müəllim dərs keçirmiş. Məktəbdə rus dili, hesab, yazı, şəriət dərslərinə üstünlük verilirdi. İkisinifli məktəbi bitirən uşaqlardan bəy ailəsindən olanları "məmur", kəndli ailəsindən olanları "mirzə" adlandırırmışlar.

Bir ildən sonra Cəbrayıl, Daşkəsən, Hərəkül kənd icmalarının nümayəndələri xalq məktəbi direktorluğuna Cəbrayılda qız məktəbi açılması xahişilə məktub göndərmişdilər. Məktubda göstərilirdi ki, bir neçə ildir müsəlman (azərbaycanlı) əhalisi arasında qız balalarına təhsil vermək istəyənlərin sayı artıb. Lakin vəsait çatışmazlığı bu arzuya maneçilik törədir. Odur ki, dövlət hesabına burada qız məktəbinin açılması xəbəri hamının ürəyindən olardı. Ancaq çar hökuməti Cəbrayılda belə bir müəssisənin açılmasını müxtəlif bəhanələrlə ləngidirdi. Hökumət bu məktəbi də yerli kasıb ailələrin vəsaiti hesabına açmaq istəyirdi. Belə haqsızlıq yerli əhali arasında ciddi narazılığa səbəb olmaya bilməzdi.

1912-ci ildə bu arzu, axır ki, reallığa çevrildi. Cəbrayıl kəndində qız məktəbi açıldı. Lakin qəzada açılan məktəblər xalqın elmə, təhsilə yaranmış ciddi ehtiyacını ödəyə bilmədi. Zəhmətkeşlərin övladları məktəbdə oxumaq, savadlanmaq həsrətindəydilər. Oktyabr sosialist inqilabı mövcud təlim ocaqlarının xalq məktəbinə çevrilməsinə, maarif və mədəniyyətin sürətli inkişafına geniş imkanlar açdı. Çar Rusiyasından qalmış "nimdaş" məktəblər yenidən qurulmağa başladı. 1920-ci ildə Azərbaycanda mövcud hakimiyyətin dəyişməsi bu prosesə güclü təkan verdi. Savadsızlığın ləğvi hərəkatı başlandı. Yeni dünyəvi məktəblər açıldı.

Cəbrayıl kəndində birsinifli kənd məktəbi bazasında yaradılmış Cəbrayıl orta məktəbinin əsl inkişafı da məhz Sovet hakimiyyəti illərində mümkün oldu. Məktəbin belə bir inkişafı və qəza məktəbləri üçün elmi-metodiki mərkəz rolu oynaması nəticəsində rayonun Soltanlı, Şükürbəyli, Böyük Mərcanlı, Balyand kəndlərində yeni məktəblər açıldı ki, bu da həmin bölgələrdə yaşayan məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsini təmin etdi.

Qeyd etməliyik ki, yarandığı ilk dövrlərdən bəri məktəbə Səlim bəy Rüstəmbəyov (1880), N. Rüstəmzadə (1907-1912), A.M.Şərifov (1912-1914), Teymur İmamqulu oğlu Quliyev (1914-1918) və başqaları rəhbərlik etmişdilər.

***



**TEYMUR İMAMQULU OĞLU QULİYEV** Qori Müəllimlər Seminariyasını bitirmişdir. Pedaqoji fəaliyyətə doğma Cəbrayılda başlamışdır. Şura hökuməti dövründə rayon Hərbi İnqilab Komitəsinin sədri işləmişdir. 1934-37-ci illərdə Azərbaycan SSR Ali Məhkəməsinin xüsusi kollegiyasının sədri, Ali Sovetin sədri seçilmişdir.

1937-54-cü illərdə T. Quliyev sovnarxoza rəhbərlik etmiş, az sonra isə Nazirlər Sovetinin sədri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Hərtərəfli biliyə, dərin zəkaya, heyrətamiz rəhbərlik qabiliyyətinə malik olan T.Quliyev müxtəlif illərdə üç dəfə Lenin ordeni, "I dərəcəli Böyük Vətən müharibəsi" və "Qırmızı Əmək Bayrağı" ordenləri ilə, eləcə də medallarla mükafatlandırılmışdır. "Cəbrayıl elinin yüksək dövlət səviyyəsində ilk təmsilçisi" (Əli Məmmədov) T.Quliyevin Azərbaycanın inkişafı və tərəqqisi, əhalinin elliklə maariflənməsi naminə, göstərdiyi misilsiz xidmətlər heç vaxt unudulmayacaqdır.

**MEHDİ MƏMMƏD OĞLU MEHDİZADƏ –** Azərbaycanda pedaqoji elmin, maarif quruculuğunun görkəmli simalarından biridir. 1903-cü ildə Cəbrayılın Daşkəsən kəndində anadan olmuşdur. Əmək fəaliyyətinə 1920-ci ildə doğulduğu kənddəki qiraət komasının müdiri kimi başlamışdır. APİ-nin fizika-riyaziyyat fakultəsini bitirmiş, bir müddət müəllim işləmişdir. APİ-nin direktoru,



Bakı Şəhər Soveti İcraiyyə Komitəsi sədrinin müavini olmuşdur. 1952-ci ilin martından Azərbaycan SSR Maarif naziri vəzifəsinə təyin edilmişdir. Bu yüksək postda o, 25 il qüsursuz çalışmışdır. 1967-ci ildə SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Öz aktuallığını heç vaxt itirməyəcək qiymətli kitablar, yüzlərlə sanballı elmi-metodiki məqalələr yazmışdır. Mehdi müəllim Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 3 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. Dahi pedaqoq, maarifimizin patriarxı, müdrik şəxsiyyət, böyük insan, ülvilik, paklıq mücəssəməsi, əvəzsiz müəllim, xalqının münəvvər övladı olan M.Mehdizadənin elmi-pedaqoji görüşləri təhsilimizə hər dövrdə düzgün yol göstərən mayakdır. "M.Mehdizadənin şöhrəti Azərbaycanın hüdudlarından çox-çox kənara çıxmışdır. Bu gözəl insanda xalq maarifinin böyük təşkilatçılıq məharətilə böyük alimin tükənməz yaradıcılıq axtarışları uğurla uzlaşmışdır" (Ə.E.İzmaylov, akademik).

**Akademik M.Mehdizadə ötən əsrin 40-cı illərinin sonlarında sözügedən məktəbdə nümunə dərsləri demiş və 1989-cu ildən məktəbə onun adı verilmişdir.**

**Bu elm fədaisinin adını şərəflə daşıyan məktəbin 125 illik yubileyi 2001-ci ilin dekabrında Azərbaycan Texniki Universitetinin akt zalında təntənəli şəraitdə keçirilmişdir.**

## MƏKTƏBİN MƏZUNLARI



Yarandığı gündən məktəb on minlərlə gəncin əlindən tutub elmin, biliyin dolanbac yolları ilə apararaq həyatın təlatümlü, qaynar qoynuna atmışdır. Məktəbi bitirəndən sonra respublikamızda və ondan kənarda çalışanların hamısının adını, soyadını xatırlatmaq imkan xaricindədir.

Fərəhli haldır ki, məzunlardan elmlər doktorları və elmlər namizədlərinin sayı ilbəil artır.

Cəbrayıl ibtidai məktəbinin ilk məzunlarından biri Azərbaycan SSR Elmlər Akademiyasının akademik katibi **ƏŞRƏF İSGƏNDƏR OĞLU HÜSEYNOVUN** adı bütün

dünyada məşhurdur. O, 1907-ci ildə Əmirvarlı kəndində anadan olmuşdur. BDU-da uzun müddət kafedra müdiri və dekan işləmişdir. Kibernetika İnstitutunun direktoru, Azərbaycan SSR EA fizika-riyaziyyat institutu, texnika bölməsinin akademik katibi vəzifəsində çalışmışdır. Alim Əməkdar elm xadimi adına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri və bir sıra medallarla mükafatlandırılmışdır. Onun məhsuldar qələmindən 150-dən çox qiymətli elmi əsər çıxmışdır. Sadə, təvazökar, qədirbilən, zəhmətkeş, böyük vətəndaş olan Ə.Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayır.

***



Məktəbin şanlı tarixindən, şöhrətli məzunlarından bir qismi də Böyük Vətən müharibəsi iştirakçıları, azadlıq və istiqlalımız uğrunda canından keçmiş və müstəqillik qazandığımız indiki dövrdə Azərbaycan Silahlı Qüvvələri cərgəsində xidmət edən zabitlərdir.

Bu tarixi salnaməyə adını qızıl hərflərlə yazan cəbrayıllıların ucalığında, heç şübhəsiz, hamımızın fəxri, vüqarı, and yeri olan Sovet İttifaqı Qəhrəmanı **CƏMİL MƏHƏMMƏD OĞLU ƏHMƏDOV** dayanır. Cəmil 1940-41-ci dərs ilində X sinfi əla qiymətlərlə bitirmişdi. O, bütün fənlərə eyni münasibət bəsləyir, riyaziyyat fənnindən xüsusilə fərqlənirdi. Müharibə başlayanda onun cəmi 17 yaşı vardı. Orta məktəbi təzəcə bitirmişdi. Buna baxmayaraq, hərbi komissarlığa gəlmiş, cəbhəyə göndərilməsini təkidlə xahiş etmişdi. Üç-dörd aylıq hərbi təlimdən sonra kiçik leytenant rütbəsində vətənin müdafiəsinə yola düşmüşdü. Cəmilin başçılıq etdiyi vzvod düşmənə aman vermirdi. O, özü əsgərlərinə şəxsi nümunə göstərərək on nəfər faşisti məhv etmişdi. 1944-cü ildə Polşa torpağında gedən qanlı döyüşdə C.Əhmədov yaralandığı halda, döyüşü tərk etməmiş, son nəfəsədək vuruşmuş, qəhrəmanlıqla həlak olmuşdur. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il mart tarixli Fərmanı ilə C.M.Əhmədova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Parlaq istedada malik olan C.Əhmədovun vətənə, xalqa, canından artıq sevib əzizlədiyi anasına, işıqlı tarixi şəxsiyyətlərə aid çoxlu şeirləri də vardır. Onun dahi Nizamiyə qoşduğu "Böyük ustad" adlı şerinin əlyazması Cəbrayılda qəhrəmanın adını daşıyan Xatirə muzeyində saxlanırdı. Şerin bir parçasını diqqətinizə çatdırırıq:

**Onun varlığıydı, canıydı Vətən,**
**Bağlıydı Vətənə o dahi qəlbən.**

**Dahi əsərləri, dərin hikməti**
**Olmuş Nizaminin böyük qüdrəti.**
**İnsan şəxsiyyətin tutaraq yüksək,**
**Vermədi saraya şerindən bəzək...**

Əbədiyaşarlığın mavi səmasında günəş kimi bərq vuran C.Əhmədov A.Nevski və «Qırmızı ulduz» ordenləri ilə təltif edilmişdir. Həmyerlimizin məzarı Varşavada sovet əsgərləri qəbiristanlığındadır.

Həyatdan nakam getmiş mətin eloğlumuzun igidliyi, şücaəti, solmaz şöhrəti bütün nəsillər üçün örnəkdir.

***



Məktəbin adını, şərəfini həyatla vidalaşanadək uca tutan məzunu **YUSİF MƏHƏMMƏD OĞLU FƏRZƏLİYEV** çox çətin, lakin şərəfli bir yol keçmişdir. Öz gərgin əməyi, inadkarlığı, təşəbbüskarlığı və təşkilatçılıq bacarığı sayəsində neft mədənləri idarəsində adi fəhləlikdən sahə rəisi vəzifəsinə qədər yüksəlmişdir. Y.Fərzəliyev Sovetlərin hakimiyyəti illərində dəbdə olan kommunist əməyi zərbəçisi adı uğrunda hərəkatın təşəbbüsçülərindən və fəal iştirakçılarından olmuşdur. Neftçilərin sosializm yarışında qazandığı parlaq göstəricilərə görə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

***



Məktəbin məzunlarından uzun müddət partiya təşkilatlarında yüksək vəzifələrdə çalışanlar da vardır. **MƏMMƏD HƏMZƏ OĞLU MƏMMƏDOV** belələrindən biridir. 1927-ci ildə anadan olmuşdur. Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. 1957-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu MTS-nə direktor təyin edilmişdir. Sonralar Kənd Təsərrüfatı Nazirinin müavini vəzifəsinə irəli çəkilmişdir. Culfa rayon Partiya Komitəsinin II katibi, Naxçıvan Vilayət Partiya Komitəsinin katibi, Sabirabad rayon Partiya Komitəsinin I katibi vəzifələrində çalışmışdır. M.Məmmədov səmərəli fəaliyyətinə, təşkilatçılıq qabiliyyətinə görə «Şərəf Nişanı» Ordeni, eləcə də bir sıra medallarla, dəfələrlə Fəxri fərmanlarla mükafatlandırılmışdır.

***

**ƏDİL MƏMİŞ OĞLU ƏBİLOV** orta təhsilini 1932-ci ildə tamamlamışdır. APİ-ni və Moskva İqtisad İnstitutunu bitirmişdir. Müxtəlif məsul vəzifələrdə işləmişdir. Lənkəran, Mirbəşir (indiki Tərtər), Puşkin (indiki Biləsuvar) rayon partiya komitələrinin birinci katibi vəzifələrində çalışmışdır. Uzun müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunda siyasi iqtisad fənnindən dərs demişdir. İqtisad elmləri namizədidir.



***



**VAHİD ASLAN OĞLU İSMAYILOV** 1931-ci ildə Çərəkən kəndində anadan olmuşdur. 1953-cü ildə Gəncə Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə ədəbi işçi kimi başlayan gənc mütəxəssis müxtəlif vaxtlarda aqronom, kolxoz sədri işləmişdir. İşgüzarlığını, yüksək mənəvi keyfiyyətlərini nəzərə alıb, onu partiya işinə irəli çəkmişlər. 1965-83-cü illərdə Zəngilan, Ağcabədi və Jdanov (indiki Beyləqan) rayonlarına birinci katib seçilmişdir. Fədakar əməyi iki Lenin, iki Oktyabr İnqilabı, bir «Qırmızı Əmək Bayrağı» ordeni ilə qiymətləndirilmiş, dəfələrlə deputat seçilmiş, respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuşdur.

***



**VAQİF MƏHƏMMƏD OĞLU ƏHMƏDOV** 1955-ci ildə Gəncə Dövlət Kənd Təsərrüfatı Akademiyasını bitirmişdir. 1957-58-ci illərdə Cəbrayıl Rayon Partiya Komitəsinin ikinci katibi işləmişdir. Moskva Ali Partiya Məktəbini bitirdikdən sonra Cəbrayıl Rayon Kənd Təsərrüfatı İstehsalat İdarəsinin rəisi olmuş, 1964-cü ildə rayon partiya komitəsinin birinci katibi vəzifəsinə irəli çəkilmişdir. 1970-78-ci illərdə Şamkir Rayon İstehsalat İdarəsinin rəisi, 1978-ci ildən ömrünün sonunadək (1983) Cəbrayıl rayonundakı K.Marks adına sovxozun direktoru

vəzifəsində çalışmışdır. Dəfələrlə orden və medallarla təltif edilmişdir.

***



Azərbaycan Respublikasında bank sektorunun inkişafında böyük xidmətlər göstərmiş **ELMAN SİRAC OĞLU RÜSTƏMOV** sözügedən bilik ocağının tanınmış məzunlarındandır. Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədridir. Bu məsul vəzifədə çalışdığı müddətdə E.Rüstəmov ölkədə qiymətlərin sərbəstləşdirilməsinə, milli bank sisteminin möhkəmləndirilməsinə, ən əsası isə milli valyutanın məzənnəsinin dönərli valyutalara nisbətdə gücləndirilməsinə nail ola bilmişdir. E.Rüstəmovun dərin ixtisas biliyi, müstəsna qabiliyyəti, təşkilatçılığı və idarəçilik səriştəsi nəticəsində respublika miqyasında uzun sürən yüksək inflyasiyaya son qoyulmuş, keçid dövrünün tələblərindən sui istifadə edərək fırıldaqçılıqla məşğul olan bank əməliyyatlarının qarşısı alınmış, prioritet sahələrin bank kreditlərilə təmin edilməsi mümkün olmuş, respublikanın hesabat-ödəmə balansının tərtibi mövcud tələblərə uyğunlaşdırılmışdır. Məşhur bank mütəxəssisi E.Rüstəmov iqtisad elmlər namizədidir.

***



**ASLAN ƏHMƏD OĞLU ASLANOV** da orta təhsilini haqqında danışdığımız məktəbdə almışdır. Bakı Dövlət Universitetinin jurnalistika fakultəsini bitirən A.Aslanov Ağcabədi, Zərdab, İmişli rayon qəzetlərində çalışmışdır. 1990-92-ci illərdə isə "Xalq qəzeti"ndə şöbə müdiri işləmişdir. 1992-ci ildən Azərbaycan Dövlət Teleqraf Agentliyində (Azər TAC) müxbir, baş redaktor müavini, baş redaktor, sonralar baş direktorun müavini vəzifələrini daşımışdır.

Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür. AJB-nin H.Zərdabi adına və "Qızıl qələm" mükafatları laureatıdır. 2002-ci ilin oktyabrından Azər TAC-ın Baş direktoru vəzifəsindədir.

***



Məktəbə 45 il fizika-riyaziyyat ixtisaslı müəllim, kamil pedaqoq, unikal insan **İSLAM HƏMZƏ OĞLU MƏMMƏDOV** rəhbərlik etmişdir. İ.Məmmədov sadə, təvazökar, xeyirxah olduğu qədər də ciddi, zəhmli, özünə və başqalarına qarşı tələbkardı. Əsl müəllimlik, ziyalılıq etalonudur İslam müəllim. Sözün həqiqi mənasında mahir pedaqoq, parlaq şəxsiyyətdi. Yeri gəlmişkən, bu kitabın müəllifləri də onun "şinel"indən çıxdıqlarına görə, onu yaxından tanıyanlar və sevənlər kimi İ.Məmmədov fenomeni barəsində həftələrlə söhbət aça bilərlər.

Hələlikdə isə bunları demək kifayətdir ki, İslam müəllim məktəbə rəhbərlik etdiyi müddətdə istər müəllim, istərsə də şagird kollektivləri arasında dəmir nizam-intizam, yüksək məsuliyyət hissi, sağlam mənəvi-psixoloji ab-hava hökm sürmüşdür. Təlimin keyfiyyəti görünməmiş dərəcədə yüksəlmiş, məktəbin adı respublika miqyasında öncüllər sırasına çıxmışdı. "Məktəbin direktoru İ.Məmmədov özünün böyük pedoqoji ustalığı ilə məktəbə topladığı müəllimlərlə, sözün həqiqi mənasında, o dövrün sovet məktəbləri fonunda bir Qori Seminariyası gücündə özünəməxsus sistem yaratmışdı. Bu gün Azərbaycanın mənəvi potensialı arasında o məktəbin məzunlarının xüsusi yeri var" (Ə.R.Xələfli).

Çətin və zıqzaqlı həyat məktəbi keçmiş İ.Məmmədovun səmərəli və çoxcəhətli fəaliyyəti "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə", "Rəşadətli əməyə görə", "1941-45-ci illərdə Böyük Vətən müharibəsində qələbənin 30 illiyi" medalları, həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə dəyərləndirilmişdir. 1976-cı ildə ona əməkdar müəllim fəxri adı verilmişdir. Respublikamızda elə bir sahə yoxdur ki, orada İslam müəllimin vaxtilə dərs dediyi məzunlardan işləməsin, yüksək ixtisaslı mütəxəssis kimi tanınmasın, öz bacarığı, üstünlüyü, ümumi səviyyəsi ilə seçilməsin. İ.Məmmədov hazırda təqaüddədir.

***

**SABİR MƏHƏMMƏD OĞLU ƏHMƏDLİ** Azərbaycan nəsrinin inkişafında müstəsna xidmətləri olan məhsuldar qələm sahiblərimizdəndir. O, yarım əsrdən çox bir dövrü əhatə edən yaradıcılığı ərzində yüksək sənət nümunələri sayılan romanlar, povestlər, hekayələr, oçerklər yazmışdır. S.Əhmədli əsərlərində müasir cəmiyyətimizin həyatında baş verən hadisələrə öz realist münasibətini bildirmiş, insanı narahat edən, incik salan ağrılı problemlər, o



cümlədən saxtakarlıq, rüşvətxorluq, süründürməçilik, yaramazlıq kimi neqativ halları kəskin tənqid atəşinə tutmuşdur. "Dünyanın arşını", "Görünməz dalğa", "Yaşıl teatr", "Yamacda nişanə", "Toğana", "Azıxa doğru", "Mavi kümbəz", "Meydan", "Kütlə", "20 Yanvar hekayələri" və s. əsərlərin müəllifi S. Əhmədli nəsrimizi həm ideya məzmun, həm də bədii sənətkarlıq cəhətdən xeyli zənginləşdirmişdir. Həmyerlimiz, qeyrətli vətəndaş, obyektiv insan, vicdanlı eloğlumuz, müasirlərinin sevinc və kədərini, arzu-istəklərini, həyata fəal münasibətlərini, yaşamaq uğrunda şər qüvvələrlə inamlı çarpışmasını inandırıcı boyalarla canlandırmışdır. Professor Q.Kazımov yazır: "S.Əhmədov həyatın hər üzünü, həm keçmişini, həm indisini, həm gələcəyini... özünəməxsus bir üslubda ümumiləşdirməyi bacaran usta yazıçıdır. Onun əsərlərindən oxucular müasirlərinin mənəvi-psixoloji aləmi barədə ensiklopedik məlumat ala bilirlər".

130 yaşlı məktəbin məzunu Azərbaycanın xalq yazıçısı S.Əhmədli bu gün də gənclik həvəsilə yazıb-yaradır.

***



**MÜZƏFFƏR MİRZALI OĞLU SADIQOV** rayonun sayılıb-seçilən, öz ixtisasını yaxşı bilən, fənnini sevdirməyi bacaran müəllimlərindəndir. 1962-ci ildə APİ-nin tarix-filologiya fakultəsini bitirmişdir. Pedaqoji fəaliyyətə M. Qorki adına (indiki akad. M.Mehdizadə adına) şəhər orta məktəbində başlamışdır. Vaxtilə onun qabaqcıl təcrübəsi respublika səviyyəsində yayılmışdır.

Elmi-pedaqoji səriştəsi, metodiki hazırlığı, zəngin təcrübəsi qədərincə qiymətləndirilmişdir. Belə ki, o, yüksək təhsil göstəricilərinə görə "Qabaqcıl maarif xadimi", "Baş müəllim", "Metodist müəllim" adlarına layiq bilinmişdir. 1986-cı ildə "Əmək igidliyinə görə" medalı ilə təltif olunmuşdur. 1988-ci ildən haqqında danışdığımız tədris ocağına rəhbərlik edir.

Tibb elmləri doktoru **QƏHRƏMAN MƏCİD OĞLU ƏBİLOV** bu qocaman maarif-mədəniyyət ocağının ən layiqli yetirmələrindəndir. Məktəbin ilk əlaçı şagirdlərindən olmuşdur. Təsadüfi deyil ki, 1923-cü ildə onu və onunla

birlikdə 5 nəfər fəal şagirdi seçib yenicə təşkil edilmiş Şuşa Pedaqoji məktəbinə göndərmişdilər. 1931-ci ildə xüsusi dövlət komissiyası onu Moskva Dövlət Universitetində təhsilini davam etdirməyi məsləhət bilmişdir. Moskvadan Bakıya qayıdan Q.Əbilov S.M.Kirov adına BDU-da pedaqoji fəaliyyətini davam etdirmişdir. 1939-cu ildə isə o, N.Nərimanov adına Tibb İnstitutunda biologiya kafedrasına aspirant götürülür. 1951-ci ildə tibb elmləri namizədi dərəcəsi almaq üçün dissertasiya müdafiə edir. Bir neçə ildən sonra isə tibb elmləri doktoru alimlik dərəcəsi alır və ona professor adı verilir.

Qəhrəman müəllim 40 ildən çox Azərbaycan Dövlət Tibb İnstitutunda çalışmışdır. Xeyli yetirmələri vardır.

***

Məktəbin ləyaqətli məzunlarından olan **TELMAN ALHÜSEYN OĞLU HÜSEYNOV** 1959-cu ildə BDU-nun sənayenin iqtisadiyyatı fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə "Bakı fəhləsi" zavodunda iqtisadçı kimi başlamışdır. "Azərbaycan neft-mədən maşınqayırmasının əsas fondlarından istifadəsinin yaxşılaşdırılması yolları" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. T.Hüseynov Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim vəzifəsində çalışmış, bir müddət "Maddi-texniki təchizatın iqtisadiyyatı" kafedrasına rəhbərlik etmişdir. Sənayenin iqtisadiyyatı sahəsində yüksək professionallığı ilə fərqlənən T.Hüseynov 1988-ci ildə "Maşınqayırmanın inkişafı və səmərəliliyinin yüksəldilməsinin sosial-iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Əməkdar iqtisadçı hazırda Azərbaycan İqtisad Universitetinin tədris işləri üzrə prorektorudur.

***

Tibb elmləri doktoru **ÇİNGİZ BAYRAM OĞLU QULİYEV** 1968-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu, 1973-cü ildə isə Sank-Peterburqda kliniki ordinaturanı və aspiranturanı bitirdikdən sonra namizədlik dissertasiyası müdafiə etmişdir. ATİ-nun uşaq Cərrahlığı Kafedrasının assistenti, sonralar həmin kafedranın dosenti vəzifəsində çalışmışdır. Sankt-Peterburq Pediatriya İnstitutunda doktoranturanı bitirmiş, "Uşaqlarda qarın boşluğu orqanlarının kəllə-beyin travması ilə müştərək zədələnməsi" mövzusunda elmi işini müdafiə edərək tibb elmləri doktoru dərəcəsini almışdır.

1985-95-ci illərdə ATİ-nun uşaq cərrahlığı kafedrasının professoru, 1995-ci ildən isə həmin kafedranın müdiri vəzifəsini tutmuşdur. 1986-cı ildən Səhiyyə Nazirliyinin baş uşaq cərrahıdır. Uşaq cərrahiyyəsinin bütün sahələrinin aktual problemlərinə həsr edilmiş 200-dən çox elmi əsərin, Azərbaycan dilində 40 çap vərəqi həcmində "Uşaq cərrahlığı" dərsliyinin, "Uşaq travmotologiyası", "Uşaqlarda qarın boşluğunun travmatik zədələnməsi" kitablarının, bir neçə sanballı monoqrafiyanın, 16 tədris vəsaitinin müəllifidir.

Dünya şöhrətli alim 2002-ci ildə respublikamızın tarixində ilk dəfə olaraq ikigünlük natamam siam əkizlərini çətin əməliyyat yolu ilə bir-birindən ayırmışdır. Onlardan biri hal-hazırda yaşayır. Həmyerlimizin bu böyük uğuru barəsində ABŞ rejissoru "Təbabətdə möcüzə" adlı film çəkmişdir. Ç.Quliyev uzun illərdir Azərbaycan Dövlət Tibb Universitetində müəllim işləyir.

***

Akademik M.Mehdizadə adına orta məktəbin şərəfini bayraq kimi daim başının üstünə qaldıran, bu təhsil ocağının yetirməsi olmağıyla qürur duyan **VİDADİ CƏMİL OĞLU XƏLİLOV** hərtərəfli istedad sahibi, geniş yaradıcılıq qabiliyyətinə malik alimdir. Vidadi müəllim pedaqoji elmlər doktoru, professor, Azərbaycan Gənclər İttifaqı mükafatı və akademik M.Mehdizadə mükafatı laureatıdır. V.Xəlilov çoxlu sayda monoqrafiyalar, dərsliklər, proqram və metodik vəsaitlər müəllifidir.

1975-ci ildə "İbtidai siniflərdə Azərbaycan xalq yaradıcılığı nümunələrinin öyrədilməsi estetik tərbiyə vasitəsi kimi" (musiqi və ədəbi folklor nümunələri əsasında) mövzusunda namizədlik dissertasiyası müdafiə etdikdən sonra onun yaradıcılıq imkanları xeyli artdı. V. Xəlilov 25 il Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutundakı Estetik tərbiyə şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1994-cü ildə "Azərbaycan ümumtəhsil məktəblərində estetik tərbiyənin nəzəriyyəsi və təcrübəsi" mövzusunda elmi iş müdafiə edərək pedaqoji elmlər doktoru alimlik dərəcəsi almışdır. Aramsız yaradıcılıq axtarışlarında olan görkəmli alim hazırda Təhsil Problemləri İnstitutu məktəbəqədər tərbiyə və ibtidai təhsil şöbəsinin müdiri, Bakı Ali Pedaqoji Qızlar Seminariyası pedaqoqika kafedrasının professoru vəzifəsində çalışır. Respublikanın ən mötəbər jurnal və qəzet səhifələrində yüzlərlə məqaləsi çap olunmuşdur. Mənəvi estetik tərbiyə işinin elmi-pedaqoji əsaslarla qurulması, yüksək ixtisaslı pedaqoji kadrların hazırlanması sahəsində yorulmadan çalışan Vidadi Xəlilovun gərgin, heyrətamiz əməyi müxtəlif illərdə layiqincə dəyərləndirilmişdir. Şair-pedaqoq Ə.Ağayev öz ürək dostu və həmkarı V. Xəlilova həsr etdiyi şerində yazır:

**Üzün - gözün gülür, şəfəq kimisən,**
**Əlvanlıq yayırsan bir nur içində.**
**Qapımdan boylanan günəş kimisən**
**Hər dəfə dəhlizdən ötüb keçəndə...**

***

Məktəbin tanınmış məzunlarından olan **BƏKİR BAHADIR OĞLU QULİYEV** 1960-cı ildə APİ-ni fərqlənmə diplomu ilə bitirmiş, orada saxlanmışdır. 1962-65-ci illərdə akademik H.Abdullayevin rəhbərliyi ilə SSRİ EA Fizika İnstitutunun aspiranturasında oxumuşdur. Bir müddət APİ-də müəllim işləmiş, sonralar xarici ölkələrdə elmi yaradıcılığını təkmilləşdirmişdir.

Bəkir Quliyev 1985-ci ildə Moskva şəhərində doktorluq işini müvəffəqiyyətlə müdafiə etmişdir. ABŞ-da, Almaniyada, Fransada, İngiltərədə,

Hollandiyada, Macarıstanda, Türkiyədə, Səudiyyə Ərəbistanında xeyli sayda elmi əsəri çap edilmişdir. Professor B.Quliyevin qələmindən 4 iri həcmli kitab çıxmışdır. Böyük alim, yorulmaz tədqiqatçı, ixtiraçı Rumıniya EKO Enerji Akademiyasına, Rusiya Federasiyası EA-na, eləcə də Nyu-York EA-na üzv seçilmişdir.

***

Özünün zahiri görkəmi, daxili bütövlüyü, mənəvi aləminin zənginliyi, qəlbinin genişliyi, nurlu şəxsiyyəti ilə kamillik mərtəbəsinə yüksələn bir eloğlumuz da var: **AYDIN MUSA OĞLU ƏSGƏROV.** O, 1969-cu ildə APİ-nin biologiya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin il Azərbaycan EA Botanika İnstitutunun aspiranturasına daxil olmuşdur. 1972-ci ildə namizədlik, 1984-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Beynəlxalq Ekologiya və Təbiəti Mühafizə İnstitutunun həqiqi üzvüdür. Ümumdünya Təbiət Fondunun Qafqaz üzrə koordinatorudur. Biologiya, ekologiya, ətraf mühitin mühafizəsi problemlərinə dair 120-dən çox elmi əsər yazmışdır. Aydın müəllim 30 ilədək bir müddətdə Milli EA Botanika İnstitutunda səmərəli fəaliyyət göstərmişdir.

A. Əsgərov həm də təhsilin təşkili və idarə olunması sahəsində tanınmış mütəxəssisdir. Müxtəlif vaxtlarda bir sıra özəl ali təhsil müəssisələrində rektor, prorektor, dekan, kafedra müdiri vəzifələrində çalışmışdır. Hazırda o, Elm-Təhsil Mərkəzi "Təfəkkür" Universitetində Ekologiya kafedrasının müdiridir. Məşhur alim respublikamızın ictimai həyatında da fəal iştirak edir. Müxtəlif illərdə təhsil müəssisələrinin Attestasiyası üzrə Dövlət Komissiyasının üzvü olmuşdur. A. Əsgərov Azərbaycan Alimlər İttifaqı Rəyasət Heyətinin sədri kimi yaradıcı alimlərin fəaliyyətinin istiqamətləndirilməsində, onların sosial müdafiəsində, eləcə də elmin, təhsilin, maarifin təbliğində əlindən gələni əsirgəmir.

***

Daxili yanma prosesi problemi sahəsində dünya miqyaslı ixtiralar müəllifi kimi tanınan **RAFİQ İSRAFİL OĞLU MEHDİYEV** Azərbaycan Politexnik İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. Texnika elmləri doktorudur. 1963-2001-ci illərdə ADPU-də rektor, sonra isə kafedra müdiri vəzifəsində işləmişdir. Beynəlxalq Neft Akademiyasının həqiqi üzvü, Elm və Texnika Komitəsi İxtiralar və Kəşflər Elmi Şurasının sədri, Ali Attestasiya Komitəsinin üzvü, Azərbaycan Texniki Universitetinin orqanı olan "Elmi xəbərlər" jurnalının baş redaktorudur. Tədqiq etdiyi problemlərlə əlaqədar yazdığı sanballı əsərləri müxtəlif dillərdə çap edilmişdir.

***

**ARİF CƏMİL OĞLU ABBASQULİYEV** 1932-ci ildə Cəbrayıl şəhərində anadan olmuşdur. BDU-nun hüquq fakultəsini 1955-ci ildə bitirmişdir. 1957-ci ildə Lomonosov adına Moskva Dövlət Universitetində aspiranturaya daxil olmuşdur. Müdafiə etdikdən sonra uzun müddət BDU-da çalışmış, Torpaq hüququ

kafedrasının müdiri və professoru vəzifəsində işləmişdir. Xeyli elmi əsərlərin, hüquq fakültəsi üçün dərsliklərin müəllifidir.

***

Bu gün bütün cəbrayıllıların inamla, ümidlə, əminliklə tez-tez üz tutduqları bir ünvan var. Bu ünvan **ELMİRA AZAD QIZI ŞİRİNOVANIN** işlədiyi yer - şəhər Kardioloji mərkəzidir. Elimizin gözəl, mehriban, qayğıkeş, alicənab, fədakar, təəssübkeş xanım-xatın qızı E.Şirinova orta məktəbi qızıl medalla bitirmişdir. O, Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakultəsinin məzunudur. Cəbrayıl şəhər mərkəzi xəstəxanasında, Qədirli adına xəstəxanada həkim işləmişdir. Elmira xanım Qematalogiya İnstitutunun məsləhəti və göndərişilə 3 il Moskva aspiranturasında oxumuşdur. 1983-cü ildə həmin şəhərdə elmi işini müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Həmin vaxtdan Bakıdakı Kardiologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır.

***

Məktəbin məzunlarından hüquq işçiləri də az deyildir. Bunlardan biri **RAZİYƏ HÜSEYN QIZI ATAŞOVADIR.** Orta məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. İki il istehsalatda çalışdıqdan sonra Bakı Dövlət Universitetinin hüquq fakultəsinin əyani şöbəsinə daxil olmuşdur. 1978-ci ildə universiteti bitirərək təyinatla Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilmişdir. Nazirliyin Elmi Tədqiqat Məhkəmə Ekspertizası Kriminalistika Problemləri İnstitutunda ekspert, elmi işçi, elmi katib vəzifəsində çalışmışdır. 2000-ci ildə hakim vəzifəsini tutmaq üçün keçirilmiş test imtahanlarında iştirak etmiş, Azərbaycan Respublikası Prezidentinin təqdimatı, milli məclisin qərarı ilə Azərbaycan Respublikasının İqtisad Məhkəməsinə hakim təyin edilmişdir. R.Ataşova hüquq elmləri namizədidir.

***

Dünyanın kütləvi informasiya vasitələrində bu gün də adı hallandırılan **RAMİL SAHİB OĞLU SƏFƏROV** özünü peşəkar hərbçi görmək istəyirdi. Bu istək onu C.Naxçıvanski adına hərbi məktəbə gətirmişdi. Burada onun nümunəvi davranışı, çevikliyi, qoçaqlığı, çətinliklərə mətanətlə sinə gəlməsi, qeyri-adi bacarığı nəzərə alınaraq Türkiyəyə göndərildi. Dörd il Ankara şəhərində oxuyan, Kiprdə bir il hərbi təlim keçən Ramil kiçik leytenant rütbəsinə yiyələnmişdi. Türkiyədən qayıdan gənc zabit Gədəbəy rayonunda yerləşən "N" hərbi hissəsində komandir kimi qulluq etmiş, sonra isə bir müddət Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində çalışmışdır. Baş leytenant R.Səfərov sonralar Macarıstana kursa göndərilmişdir. Burada o, öz həyatını risqə qoyaraq Müstəqil Azərbaycanımızın müqəddəs bayrağını təhqir edən erməni hərbçisini qətlə yetirməkdə təqsirli bilinmişdir.

Təkcə cəbrayıllılar deyil, bütün azərbaycanlılar özünün mərd, qeyrətli, təəssübkeş, vətənpərvər oğlu ilə fəxr edirlər. Ermənipərəst Budapeşt məhkəməsi haqqı, ədaləti tapdalayaraq ona ömürlük həbs cəzası kəsmişdir.

Qorxmaz eloğlumuzun igidliyi, qətiyyəti, cəsarəti hazırda düşmən əsarətində inləyən torpaqlarımızı azad etməli olan gənclərimiz üçün səfərbəredici çağırışdır.




*Ramil Səfərov hərbi and içir*



*Akademik Ə.Hüseynov məktəbin pedaqoji kollektivi arasında*



*Məktəbin müəllimləri Sovet İttifaqi Qəhrəmanı C.Əhmədovun büstü önündə*

# MƏKTƏB İNKİŞAF YOLLARINDA

Yeni məktəblər yaratmaq, onların fəaliyyətini günün tələbləri səviyyəsində qurmaq, yeni tədris proqramları tərtib etmək, dərsliklər, dərs vəsaitləri hazırlamaq, müəllim kadrları yetişdirmək prioritet məsələ kimi qarşıda dururdu.

Cəbrayıl kəndində 1920-ci ilədək işləyən ikisinifli məktəbin bazası əsasında dördsinifli məktəb yaradıldı. 1925-ci ildə bu müəssisə beşsinifli məktəbə çevrildi. Beşsinifli ibtidai məktəb 1932-33-cü dərs ilinə qədər fəaliyyətini davam etdirdi. Bu, irəliyə doğru atılan ilk addım sayılsa da, problemləri, xüsusən də savadsızlığı



tam ləğv edə bilmədi. Kəndli-gənclər məktəblərinin təşəkkül tapması yaranmış boşluğu qismən doldurdu.

Belə məktəblərdən biri də Cəbrayıl kəndində açıldı. 1929-30-cu tədris ilindən etibarən ibtidai məktəbin beşinci sinfini bitirənlər öz təhsillərini kəndli-gənclər məktəbində davam etdirdilər.

***1932-ci ildə yeni rayonlaşma ilə əlaqədar olaraq Cəbrayıl Rayon Xalq Maarif Şöbəsi təsis edildi. Şöbənin yaradılması tədrisin keyfiyyətinə rəhbərlik və nəzarətin gücləndirilməsinə, dərslərin səmərəli təşkilinə öz təsirini göstərdi.***

Sənayenin və kənd təsərrüfatının yenidən qurulması xalq maarifi sisteminin təkmilləşdirilməsi zərurətini doğururdu. Bolşeviklər Partiyasının XVII qurultayı ümumi icbari politexnik təhsilə keçmək məsələsini ortaya atdı. Bu məsələnin şəhərlərdə olduğu kimi, kənd yerlərində də həyata keçirilməsi qərara alındı.

Yeddiillik məktəblərin, sonralar isə orta ümumtəhsil məktəblərin sayı get-gedə planlı şəkildə artırıldı.

1935-36-cı dərs ilində Cəbrayıl beşsinifli ibtidai və kəndli-gənclər məktəblərinin bazasında orta məktəb təşkil olundu. Yeni yaradılan orta məktəbdə oxuyan 276 şagirdin təlim-tərbiyəsi və müstəqil həyata hazırlanması cəmi-cümlətanı 8 nəfər müəllimə həvalə edildi. Məktəbin binası 12 sinif otağından ibarət idi. 1937-38-ci dərs ilində orta məktəbin ilk buraxılışı oldu. Həmin il burada təhsilə cəlb edilən 426 nəfər şagirdə artıq 13 nəfər müəllim dərs deyirdi. Siniflərin sayı 18-ə çatdırılmışdı. 1939-40-cı tədris ilində burada şagirdlərin sayı artaraq 440 nəfər olmuşdu.

Qızların sayı da getdikcə çoxalırdı. Şagird kontingentinin, eləcə də müəllim kadrlarının çoxalması yeni sinif otaqları, fənn kabinetləri, laboratoriyaların təşkil olunmasını qaçılmaz etdi. Lakin məktəbin köhnə və yararsız binası müasir tələbata cavab vermirdi. Məktəb üçün hər cür şəraiti olan yeni bina tikmək zərurəti meydana çıxdı. 1935-ci ildə inşasına başlanan bina 1939-cu ildə istifadəyə verildi. Bu, təkcə müəllim və şagirdləri deyil, bütün rayon ictimaiyyətini hədsiz dərəcədə sevindirdi. Yeni məktəbin geniş, işıqlı sinif otaqları, zəngin fənn kabinələri, texniki təlim vasitələrilə təchiz olunmuş laboratoriyaları, idman zalı, kitabxanası vardı.

Böyük Vətən müharibəsinin başlanması xalqın intəhasız arzu və istəklərinin gerçəkləşməsinin yolunu kəsdi. SSRİ adlı - ünvanlı vətənimizin hər yerində olduğu kimi, Cəbrayılda da dinc quruculuq işləri dayandırıldı. Müəllimlərdən bir çoxu, hətta yuxarı sinif şagirdlərindən bəziləri cəbhəyə getmək, Hitler faşizmini geri oturtmaq məqsədilə hərbi komissarlığa ərizə ilə müraciət etdi. Bu səbəbdən də müharibə illərində müəllim və şagirdlərin sayı azaldı, təlimin keyfiyyəti aşağı düşdü.

***1944-cü ildə məktəbin pedaqoji kollektivinin təşəbbüsü ilə Cəbrayıl qəsəbə orta məktəbinə böyük rus yazıçısı Maksim Qorkinin adı verildi.***

Faşist Almaniyası üzərində tarixi qələbə hər yerdə olduğu kimi, Cəbrayılda da sonsuz sevinc, qürur hissilə qarşılandı. Müharibə cəbhələrində qəhrəmanlıq göstərmiş, inad və inamla vuruşmuş müəllimlər doğma məktəbə qayıtdılar. Məktəb partiya, komsomol və pioner təşkilatlarının işi yenidən qurulmağa başladı. Partiya təşkilatının işinə rəhbərlik müharibə iştirakçısı **Fərman Mehdiyevə** etibar edildi.

1947-48-ci dərs ilində M.Qorki adına orta məktəbdə 560 nəfər şagird elmlərin əsaslarına yiyələnirdi. Təhsil ocağında icbari təhsil qanununun yerinə yetirilməsi diqqət mərkəzində idi. Məktəbyaşlı uşaqlar sonsuz həvəs və sevinclə məktəbə axışırdılar.

1963-cü ildə şagird kontingenti 707 nəfərə çatdırılmışdı. Həmin il bu məktəbin kontingenti əsasında rayon mərkəzində 300 nəfərlik yeni səkkizillik məktəb təşkil edildi. Orta məktəbi olmayan dağ kəndlərində səkkizinci sinfi bitirən şagirdlərin Cəbrayıl orta məktəbinin doqquzuncu sinfinə cəlb edilməsi nəticəsində şagirdlərin sayı ilbəil artırdı. Uzaq kəndlərdən gələn şagirdlər məktəbin yaxınlığındakı yataqxanada qalırdılar.

Məktəbin maddi-texniki bazası getdikcə möhkəmlənirdi. 1975-ci ildə məktəbdə yeddi fənn kabineti fəaliyyət göstərirdi. Müasir tipli idman meydançası tikilmişdi. Şagirdlərin təşəbbüsü ilə coğrafiya meydançası düzəldilmişdi. Şagirdlər öz əllərilə tədris-təcrübə sahəsi yaratmışdılar. Sahədə çoxlu sayda müxtəlif meyvə ağacları əkilmişdi. Yetişdirilmiş meyvələr adətən mərkəzdəki uşaq bağçasının balaca sakinlərinə verilirdi.

***Təlim, eləcə də şagirdlərin şüurlu intizam tərbiyəsi, müstəqil həyata hazırlanması sahəsində qazandığı nailiyyətlərə görə Cəbrayıl şəhər orta məktəbi o dövrdə respublika üzrə 11 qabaqcıl məktəbdən biri hesab olunurdu.***

***

1976-cı ildə Azərbaycan KP MK-nın birinci katibi H.Əliyev cənablarının diqqət və qayğısı sayəsində respublika səviyyəsində məktəbin 100 illik yubileyi təntənəli şəraitdə keçirildi. Yubiley şənliyində respublikanın adlı-sanlı elm, təhsil, mədəniyyət və incəsənət xadimləri iştirak etdilər. O vaxt Azərbaycan Respublikasının Maarif naziri vəzifəsində çalışan görkəmli elm fədaisi və ictimai xadim, akademik Mehdi Mehdizadə parlaq, əhatəli nitq söylədi.

Yubileylə əlaqədar məktəbin direktoru İslam Məmmədova, riyaziyyat müəllimi Rəşid Məmmədova, sinif müəllimi Əli Əlizadəyə respublikanın əməkdar müəllimi adı verildi, kimya müəllimi Əminə Əbilova Lenin ordeni ilə mükafatlandırıldı. Məktəbin bir qrup müəllimi isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanına, eləcə də metodist və baş müəllim adına layiq görüldü.

## MƏKTƏB MÜƏLLİM KOLLEKTİVİNİN FƏALİYYƏTİ

60-70-ci, eləcə də sonrakı illərdə Cəbrayıl şəhər orta məktəbinin ictimai təşkilatları vaxtaşırı olaraq təlim-tərbiyə prosesinin yaxşılaşdırılmasına, şagirdlərin vətənpərvərlik tərbiyəsinə, onlarda əxlaqi-mənəvi keyfiyyətlərin aşılanmasına, həmçinin öz fikirlərini sərbəst, ifadəli və məntiqi şəkildə çatdırmaq qabiliyyətinin formalaşdırılmasına yönəldilmiş məsələlər hazırlayıb müzakirəyə çıxarırdılar. Bu müzakirələrin bir növ davamı kimi keçirilən sinifdənxaric və məktəbdənkənar tədbirlərə yalnız müəllimlər, şagirdlər deyil, partiya, sovet, həmkarlar təşkilatlarının, ictimaiyyətin nümayəndələri də həvəslə qatılırdılar.

Əmək və müharibə veteranları ilə, qəhrəman analarla, elm, mədəniyyət və incəsənət xadimləri, hüquq-mühafizə orqanları əməkdaşları ilə olan görüşlər,

disputlar, sorğu saatları, ədəbi-bədii kompozisiyalar, yubiley mərasimləri, poeziya axşamları və digər mədəni-kütləvi tədbirlər əsl el bayramına çevrilirdi. "Xeyirxahlıq dünyanın naxışıdır", "Vətənimin keçmişi və bu günü", "Sənin məktəbin kimin adını daşıyır", "Əsl insan necə olmalıdır", "Ölməz sənət, ölməz əsər", "Qəhrəmanlar ölmür", "Hörmət gördüyün işlə, əməllə ölçülür", "Çalış öz xalqının işinə yara", "Sən öz hüquq və vəzifələrini bilirsənmi?» və digər çoxsaylı tədbirlər uzun illər keçməsinə baxmayaraq, bu gün də yaddaşlardan silinməmişdir.

***Müəllim və şagirdlərin akademik Əşrəf Hüseynovla, Sosialist Əməyi Qəhrəmanları Köçəri Babayev və Qaçay Səfərovla, məşhur yazıçı Sabir Əhmədovla görüşləri ürəklərdə xoş, səmimi duyğular oyadırdı.***

Cəbrayıl şəhər orta məktəbində uşaqların dostluq, beynəlmiləlçilik tərbiyəsi ön plana çəkilmişdi. Bir faktı göstərmək kifayətdir ki, şagirdlər SSRİ-nin 35 məktəbi ilə dostluq əlaqəsi saxlayır, müntəzəm olaraq həmin məktəblərin şagirdləri ilə məktublaşırdılar. Qədim maddi-mədəniyyət abidələrinə ekskursiyalar təşkil edilirdi. Ekskursiyalarda şagirdlər insanların həyatı, məişəti, yaşayış tərzi, məşğuliyyəti barəsində maraqlı məlumatlar toplayırdılar. Qədim insan məskəni Azıx mağarası, Dağtumas kəndindəki "Nəfəsli dərə" adlanan yerdə beş mağara, Xubyarlıdakı türbələr, qəbiristanlıqdakı sal daşlar üzərində ox, yay, qoç, çarıq, şiş, təndir çörəyi, gül rəsmləri, Diridağın cənubundakı Diri kəndinin xarabaları, nəhəng çinarlar, sal daşlardan düzəldilmiş şərabxana yeri, Şıxlar kəndi yaxınlığındakı qədim yaşayış qəsəbəsinin qalıqları haqqında əldə olunan məlumatlar məktəblilərdə dərin maraq doğurmuşdu.

***Məktəbdə "Döyüş şöhrəti" guşəsi, azərbaycanlı qəhrəmanlara həsr edilmiş stend düzəldilmiş, Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun adına parta ayrılmışdı. Bu partada təhsil əlaçısı, məktəbin ictimai həyatında, eləcə də vətənpərvərlik mövzusunda keçirilən tədbirlərdə xüsusi fəallıq göstərən şagirdlər əyləşirdilər.***

M.Qorki adına orta məkləbin şanlı ənənələri vardı. Bu təhsil müəssisəsində tarixən ən savadlı, hazırlıqlı, bacarıqlı, nüfuzlu, sayılıb-seçilən, başqalarına nümunə göstərilən müəllimlər işləmişlər.

Zəkəriyyə Mehdizadə, Fərman Mehdiyev, Hüseyn Həsənov, Sona Mehdiyeva, Mahmud Məmmədov, Bilal Əhmədov kimi şöhrətli müəllimlər 1930-cu illərdə burada dərs demiş, şagirdləri dərin və əsaslı biliklərlə silahlandırmaq üçün səy və bacarıqlarını əsirgəməmişlər. Sonralar isə **Sabir Əhmədov, Sahib Bayramov, Cəbrayıl Hacıyev, Azad Şirinov, Arif Əliyev, Səfqulu Quliyev, Qabil Hacıyev, Dadaş Əliyev, Xalis Hüseynov, Ərşad Mehdiyev, Pakizə Hacıyeva, Famil Nəcəfov, Həcər Hüseynova, Rəşid Məhərrəmov, Ataş İsmayılov, Etelya Quliyeva, Murad Mirkişiyev** və onlarla başqaları bu tədris müəssisəsində çalışmışlar. Belə hazırlıqlı, səriştəli, məsuliyyətli müəllimlərin gərgin əməyinin, aramsız axtarışlarının nəticəsi idi ki, məktəbdə təhsil alan

şagirdlər başqa məktəbdəkilərlə müqayisədə adətən daha bilikli, məlumatlı, ayıq, diribaş idilər.

***

Ömrünü-gününü, mənalı həyatını şagirdlərinin yolunda şam kimi əridən müəllimlərdən söz düşəndə, heç şübhəsiz, **RƏŞİD ƏSƏD OĞLU MƏMMƏDOV** yada düşür. Özünün yüksək peşə hazırlığı, erudisiyası, tədris etdiyi riyaziyyat fənnini şagirdlərə sevdirməsilə həmkarlarının fövqündə dayanan R.Məmmədov 1945-55-ci illərdə Cəbrayıl Rayon Xalq Maarifi şöbəsində inspektor vəzifəsində çalışmışdır. Sonra pedaqoji fəaliyyətini məzunu olduğu M.Qorki adına orta məktəbdə davam etdirmişdir. Rayonda çoxsaylı riyaziyyat müəllimlərinin yetişdirilməsində Rəşid müəllimin müstəsna xidmətləri olmuşdur.

Uzun müddətli qüsursuz fəaliyyətini, pedoqoji-metodiki məharətini nəzərə alaraq 1976-cı ildə ona respublikanın əməkdar müəllimi fəxri adı verilmişdir.

***

Adlı-sanlı məktəbin şöhrətli müəllimlərindən biri də hamımızın sevimlisi, "müəllimlər müəllimi" **ƏMİNƏ HƏMİD QIZI ƏBİLOVA** idi. O, BDU-nun kimya-biologiya fakultəsini bitirmişdi. Azərbaycan KP MK-nin ideoloji şöbəsində təlimatçı, Cəbrayıl Rayon Partiya Komitəsində qadınlar şöbəsinin müdiri, rayon maarif şöbəsinin müdiri kimi məsul vəzifələrdə çalışmışdır. 1949-67-ci illərdə M.Qorki adına şəhər orta məktəbində ixtisası üzrə dərs demişdir. Fədakarlığı, gərgin zəhməti "Qırmızı Əmək Bayrağı" və Lenin ordenlərinə layiq görülmüşdür. Unudulmaz insan, həmişə yeri görünən, xoş məramla yad edilən cəfakeş müəllim Ə.Əbilova gənc nəslin təlim-tərbiyəsində nəsillərə nümunə olmuş, həddindən artıq zəhmət çəkmiş, bu yolda sözün həqiqi mənasında can qoymuşdur.

***

"Boyca balacaydı, ancaq... çinar ucalığındaydı. Kiminləsə həmsöhbət olsa, yaxınlaşsa, onun bu mənəvi yüksəkliyi tez üzə çıxırdı" (Məmməd Aslan). Bu sözlər aramızdan vaxtsız-vədəsiz getmiş gözəl insan, dəyərli ziyalı, əvəzsiz pedaqoq, saflıq heykəli, yüksək heyranlıq timsalı, "vicdan sarayı" **QORXMAZ NOVRUZ OĞLU BAYRAMOV** haqqındadır. O, rayonda bütöv bir ədəbiyyatçılar nəslinin, bədii söz adamlarının yetişdirilməsində xeyli əmək sərf etmişdir. APİ-nin filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdi. M.Qorki adına şəhər orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi, direktorun təlim-tərbiyə işləri üzrə müavini, Cəbrayıl Rayon Partiya Komitəsində təlimatçı, təbliğat-təşviqat şöbəsinin müdiri, rayon təhsil şöbəsinin müdiri vəzifələrində çalışmışdır. Möhkəm yaddaşa, iti hafizəyə, geniş təfəkkürə, gözəl, cazibədar, ifadəli və poetik nitqə malik idi. Şerə, sənətə bağlı bir narahat ömrün sarbanı idi. Şifahi xalq ədəbiyyatının, xüsusilə aşıq yaradıcılığının mahir bilicisi kimi tanınırdı. O, sadə, mənalı ömrünü bütünlüklə xalq kütlələrinin maariflənməsinə, siyasi-elmi, mənəvi mədəniyyətə yiyələnməsinə, onların bədii-estetik tərbiyəsinin

gücləndirilməsinə həsr etdi. Belələri heç vaxt unudulmur, qədirbilənlərin ürəyində heykəlləşir.

***

Sovet respublikalarının hamısında rus dili ikinci ana dili kimi dərindən öyrədilirdi. Azərbaycan məktəblərində birinci sinifdən başlayaraq ana dili ilə yanaşı, rus dili də keçilirdi. M.Qorki adına orta məktəbdə şagirdlərdə bu dilə həvəs oyadılması, onun incəliklərinin mənimsədilməsi ən vacib məsələlərdən hesab edilirdi. Bu sahədə aydan-aya, ildən-ilə ciddi irəliləyişlər duyulurdu. Məktəbin bəxti elmi-metodik cəhətdən hazırlıqlı, qabiliyyətli və tələbkar rus dili müəllimləri sarıdan da gətirmişdi. Həmin dildə vaxtaşırı müxtəlif mövzuları əhatə edən maraqlı tədbirlərin keçirilməsi bir ənənə şəklini almışdı. Hər həftənin IV günü "Rus dili günü" elan olunmuşdu. Qəbul edilmiş qaydaya görə həmin gün məktəbdə həm müəllim, həm də şagirdlər arasında bütün danışıqlar rus dilində olmalı idi. Belə maraqlı tədbirlərdən biri də respublika məktəbləri ilə şagirdlərin məktublaşması idi. Sözügedən proseslər məktəbin savadlı, işgüzar və təşəbbüskar rus dili müəllimlərindən **MURAD İSMAYILOVUN** və **ZOYA PANKOVANIN** rəhbərliyi və təşkilatçılığı ilə həyata keçirilirdi.

***

Məktəbdə xarici dillərin tədrisinə xüsusi qayğı və diqqətlə yanaşılırdı. Alman dili fənnini **ORUC ƏLİŞ OĞLU RZAYEV** tədris edirdi. Oruc müəllim 1954-cü ildə M.F.Axundov adına Xarici Dillər İnstitutunu bitirmişdir. Həmin ildən etibarən rayonun ermənilər tərəfindən işğalınadək bu məktəbdə işləmişdir. Onun dərs dediyi şagirdlərdən 30 nəfəri SSRİ-nin 50 illiyi adına Dillər İnstitutunu bitirmişdir. Təkcə bu fakt O.Rzayevin necə müəllim olduğu barədə aydın təsəvvür yaradır.

***

Yalnız rayonda deyil, eləcə də respublika miqyasında qabaqcıl tarix müəllimlərindən söz düşəndə **BAHADIR HƏSƏNQULU OĞLU MEHDİYEVİN** adı birincilər sırasında çəkilir. O, 1949-cu ildə M.Qorki adına Cəbrayıl orta məktəbini əla qiymətlərlə bitirmişdir. APİ-nin tarix fakültəsini fərqlənmə diplomu ilə başa vuran B.Mehdiyev rayonun Daşkəsən kənd yeddiillik məktəbinə direktor vəzifəsinə təyinat almışdır. 1956-cı ildə direktor kimi öz fəaliyyətini Balyand kənd orta məktəbində davam etdirmişdir. Bu təhsil ocağını qısa vaxt kəsiyində öz bilik və bacarığı, təşkilatçılıq səriştəsi, tələbkarlığı və prinsipiallığı sayəsində öncüllər sırasına çıxarmışdı. 1961-82-ci illərdə M.Qorki adına orta məktəbdə tarix, ictimaiyyət fənlərini tədris etmişdir.

Uzunmüddətli yaradıcı əməyi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, eləcə də "Qabaqcıl maarif xadimi", "Maarif əlaçısı" döş nişanları ilə mükafatlandırılmışdır. Respublikada ilk metodist-müəllim adına layiq görülənlərdən biri də Bahadır müəllimdir. Akademik M.Mehdizadə mükafatı laureatıdır. Hazırda rayon təhsil şöbəsində aparıcı məsləhətçidir. Uzun illərdir

kütləvi informasiya orqanlarında maraqlı məqalələrlə çıxış edir. İki kitabın müəllifidir.

**MƏKTƏBİN DİREKTORLARI**
l.E.T.Divanov - 1876-1880
2.Səlim bəy Rüstəmov - 1880-1897
3.H.Rüstəmzadə - 1897-1912
4.A.Şərifov - 1912-1914
5.T.Quliyev - 1914-1918
6.M.Piriyev - 1942-1943
7.İ.Məmmədov - 1943-1988
8.M.Sadıqov – 1988

**ƏMƏKDAR MÜƏLLİMLƏR**
1.İslam Məmmədov
2.Rəşid Məmmədov
3.Əli Əlizadə

**METODİST MÜƏLLİMLƏR**
1.Müzəffər Sadıqov
2.Azad Şirinov
3.Oruc Rzayev
4.Bahadır Mehdiyev
5.Ataş İsmayılov
6.Rəşid Məhərrəmov
7.Rasim Məmmədov

**ALİ DƏRƏCƏLİ MÜƏLLİMLƏR**
1.Arif  Xəlilov
2.Tofiq Əliyev
3.Südabə Ağakişiyeva

**BAŞ MÜƏLLİMLƏR**
1.Nüsrət Allahverdiyev
2.Etelya Quliyeva
3.Murad Mirkişiyev
4.Elmira Bağırova

**ORDEN VƏ MEDALLI MÜƏLLİMLƏR**
1.Əminə Əbilova - Lenin ordeni
2.Cəbrayıl Hacıyev - "Qırmızı Əmək Bayrağı" ordeni

3.Sahib Bayramov - "Qırmızı Əmək Bayrağı" ordeni

**AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN "FƏXRİ FƏRMANI" İLƏ TƏLTİF OLUNMUŞ MÜƏLLİMLƏR**

1.Həcər Hüseynova
2.Oruc Rzayev
3.Bahadır Mehdiyev

**FƏXRİ ADLARI OLAN MƏZUNLAR**

1.Cəmil Əhmədov - Sovet İttifaqı Qəhrəmanı
2.Yusif Fərzəliyev - Sosialist Əməyi Qəhrəmanı

**AKADEMİKLƏR**

1.Mehdi Mehdizadə
2.Əşrəf Hüseynov

**ELMLƏR DOKTORU, PROFESSORLAR**

1.Telman Hüseynov - iqtisad elmləri doktoru
2.Rafiq Mehdiyev - texnika elmləri doktoru
3.Çingiz Quliyev - tibb elmləri doktoru
4.Bəkir Quliyev - fizika-riyaziyyat elmləri doktoru
5.Dərgah Qüdrətov - tarix elmləri doktoru
6.Vidadi Xəlilov - pedaqoji elmlər doktoru
7.Məmməd Həsənov - filologiya elmləri doktoru
8.Kamil Vəliyev - filologiya elmləri doktoru
9.Aydın Əsgərov - biologiya elmləri doktoru
10.Qabil Şərifov - kimya elmləri doktoru
11.Məhəbbət Nəcəfov - fəlsəfə elmləri doktoru
12.Qəhrəman Əbilov - tibb elmləri doktoru
13.Əhliman Süleymanov - kimya elmləri doktoru
14.Nailə Hacıyeva - filologiya elmləri doktoru
15.Qəşəm Əliyev - biologiya elmləri doktoru
16.Həsən Hüseynov - texnika elmləri doktoru
17.Aydın Aslanov - geologiya-minerologiya elmləri doktoru
18.Vaqif Aslanov - coğrafiya elmləri doktoru
19.Əhməd Hacıyev - biologiya elmləri doktoru
20.Novruz Hüseynov - tarix elmləri doktoru
21.Nadir İsmayılov - tibb elmləri doktoru
22.Ramiz Hümbətov - texnika elmləri doktoru

23.Arif Abasquliyev - hüquq elmləri doktoru
24.Əhməd Kərimov - geologiya-minerologiya elmləri doktoru
25.Səttar Əbilov - kimya elmləri doktoru
26.Rəfael Nuriyev - fizika-riyaziyyat elmləri doktoru
27. Xaliq Hüseynov - fizika-riyaziyyat elmləri doktoru

## MƏKTƏBİN MƏZUNLARI VƏ BURADA MÜƏLLİM İŞLƏMİŞ ELMLƏR NAMİZƏDLƏRİ

1.Elmira Şirinova - tibb elmləri namizədi
2.Hüseyn Hüseynov - texnika elmləri namizədi
3.Rəşid Mehdiyev - fizika-riyaziyyat elmləri namizədi
4.Ofelya Səfərova - texnika elmləri namizədi
5.Tariyel Abbaslı - filologiya elmləri namizədi
6.Nəriman Seyidəliyev - filologiya elmləri namizədi
7.Azər Səfərov - iqtisad elmləri namizədi
8.Fəxrəddin Süleymanov - pedaqoji elmlər namizədi
9.Aysəba Hacıyeva - kimya elmləri namizədi
10.Elman Rüstəmov - iqtisad elmləri namizədi
11.Qiyas Məmmədov - iqtisad elmləri namizədi
12.Nazim Hüseynov - fizika-riyaziyyat elmləri namizədi
13.Natiq Əhmədov - texnika elmləri namizədi
14.Ülfət Nuriyev - fizika-riyaziyyat elmləri namizədi
15.Hicran Mehdiyev - texnika elmləri namizədi
16.Sənan Cəfərov - texnika elmləri namizədi
17.İlham Mahmudov - tibb elmləri namizədi
18.Nüsrət Şükürov - kimya elmləri namizədi
19.Rafiq Quliyev - hüquq elmləri namizədi
20.Raziyə Ataşova - hüquq elmləri namizədi
21.Cəfər Əhmədov - tibb elmləri namizədi
22.Fərzalı Həsənov - texnika elmləri namizədi
23.Elman Mehdiyev - kimya elmləri namizədi
24.Mobil Aslanov - pedaqoji elmlər namizədi
25.Məhəmməd Sadıqov - fizika-riyaziyyat elmləri namizədi
26.Kərəm Əliyev - iqtisad elmləri namizədi
27.Sahib Əhmədov - biologiya elmləri namizədi
28.Yaqub İsmayılov - filologiya elmləri namizədi
29.Akif Hüseynov - coğrafiya elmləri namizədi
30.Əli Zalov - kimya elmləri namizədi
31.Sabir Hacıyev - tibb elmləri namizədi
32.Nurəddin Yusifov - texnika elmləri namizədi
33.Oruc Qüdrətov - tarix elmləri namizədi

34.Yavər Rüstəmov - tarix elmləri namizədi
35.Fikrət Hacıyev - kimya elmləri namizədi
36.Sabir Şükürov - fizika-riyaziyyat elmləri namizədi
37.Əsgər Yusifov - fizika-riyaziyyat elmləri namizədi.
38.Vasif Qafarov - texnika elmləri namizədi
39.Məhəmmədəli Məmmədli - pedaqoji elmlər namizədi
40.Məhəmməd Beydullayev - texnika elmləri namizədi
41.Adıgözəl Vəliyev - texnika elmləri namizədi
42.Abbas Əliyev - fizika-riyaziyyat elmləri namizədi.
43.Qərib Əliyev - coğrafiya elmləri namizədi
44.Ədil Əbilov - iqtisad elmləri namizədi
45.Zahid Kərimov - pedaqoji elmlər namizədi
46.Əvəz Quliyev - texnika elmləri namizədi
47.Cəlal Əliyev - biologiya elmləri namizədi
48.Mustafa Hüseynov - kimya elmləri namizədi
49.Bəşir Əhmədov - kimya elmləri namizədi
50.Yusif Məmmədov - tibb elmləri namizədi
51.Köçəri Məmmədov - tibb elmləri namizədi
52.Əlibala Zalov - pedaqoji elmlər namizədi
53.Sefi Behbudov - filologiya elmləri namizədi
54.Gülnarə Həsənova - kimya elmləri namizədi

## MÜXTƏLİF VAXTLARDA MƏSUL VƏZİFƏLƏRDƏ İŞLƏMİŞ MƏZUN VƏ MÜƏLLİMLƏR

1.Teymur Quliyev - Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri

2.Mehdi Mehdizadə - Azərbaycan Respublikasının Maarif naziri

3.İmran Məmmədov – Azərbaycan Respublikasının Maarif Nazirliyində şöbə müdiri

4.Elman Rüstəmov - Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri

5.Aslan Aslanov - AZƏR. TAC-ın baş direktoru

6.Vahid İsmayılov - Rayon Partiya Komitəsinin birinci katibi

7.Məmməd Məmmədov - Rayon Partiya Komitəsinin birinci katibi

8.Vaqif Əhmədov - Rayon Partiya Komitəsinin birinci katibi

9.Ədil Əbilov - Rayon Partiya Komitəsinin birinci katibi

10.Yəhya Ağakişiyev - Sənaye tikinti naziri

## AZƏRBAYCAN RESPUBLİKASI YAZIÇILAR BİRLİYİNİN ÜZVLƏRİ

1.Sabir Əhmədli - Azərbaycan Respublikasının xalq yazıçısı
2.Sərdar Əsəd - şair
3.Sabir Süleymanov - yazıçı
4.Faiq Dərgahov - yazıçı
5.Sabir Məmmədov - yazıçı
6.Qorxmaz Abdulla - yazıçı
7.Tarıyel Abbaslı - publisist, tədqiqatçı
8.Əziz Musa - şair
9.Şövkət Horovlu - şair
10.Kamil Əfsəroğlu - yazıçı
11.Əlirza Xələfli - şair
12.Əlibala Zalov - yazıçı-publisist

## YÜKSƏK HƏRBİ RÜTBƏLİ MƏZUNLAR

1.Müzəffər Hacıyev - polkovnik
2.Səxavət İsmayılov - polkovnik
3.Məmməd Məmmədov - polkovnik
4.Həsən Vəliyev - polkovnik
5.Mədət Səfərov - polkovnik
6.Əli Quliyev - polkovnik
7.Əhməd Əhmədov - polkovnik

## VƏZİFƏLİ HÜQUQŞÜNASLAR

1.Əli Rüstəmov - Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü
2.Raziyə Ataşova - Azərbaycan Respublikası İqtisad Məhkəməsinin üzvü
3.Adil Minbaşıyev - Baş ədliyyə müşaviri
4.Şövkət Nəcəfova - xalq hakimi
5.İlham Nuriyev - xalq hakimi
6.İsmayıl İsmayılov - xalq hakimi

## MƏKTƏBİ QIZIL MEDALLA BİTİRƏN MƏZUNLAR

1.Şirinova Elmira Azad qızı
2.Hacıyev Əhməd Məhəmməd oğlu
3.Məmmədov Məzahir İslam oğlu
4.Verdiyev Kamal Saday oğlu
5.İsmayılov Ceyhun Akif oğlu
6.Əliyev Hüseyn Məhəmməd oğlu
7.Mirzəyev İlqar İsrafil oğlu

8.Mahmudov İlham Fikrət oğlu
9.Əhmədova Dürdanə Vaqif qızı
10.Məhərrəmov Cabir Rəşid oğlu
11.Həsənova Gülnarə İltifat qızı

## MƏKTƏBİ GÜMÜŞ MEDALLA BİTİRƏN MƏZUNLAR

1.Aslanov Vaqif Dadaş oğlu - 1956
2.Qasımov Vasif Firidun oğlu - 1957
3.Məmmədov Fikrət Mahmud oğlu - 1957
4.Hüseynova Səma Təyyar qızı - 1985
5.Quliyeva Laura Bağdasər qızı - 1985
6.Ağayeva Bahar Məmmədalı qızı - 1984
7.Allahverdiyeva Nəzakət Əli qızı -1984
8.Mehdiyev Rəşid Fərzalı oğlu - 1954
9.Quliyeva Xəyalə Qəşəm qızı - 1984
10.Məhərrəmova Vəsilə Məmməd qızı - 1984
11.Zeynalov İlham Surxay oğlu - 1984
12.Şərifova Məhparə Ramazan qızı - 1984
13.Eyvazova Səadət Cahangir qızı - 1984
14.Allahverdiyev Fikrət Nüsrət oğlu - 1984

## HAZIRDA akademik M.MEHDİZADƏ ADINA CƏBRAYIL ŞƏHƏR ORTA MƏKTƏBİNDƏ İŞLƏYƏN MÜƏLLİMLƏR

1.Sadıqov Müzəffər Mirzalı oğlu - direktor, Azərbaycan dili və ədəbiyyatı müəllimi

2.Məmmədov Rasim Mikayıl oğlu - təlim-tərbiyə işləri üzrə direktor müavini, Azərbaycan dili və ədəbiyyatı

3.Qasımlı Şəlalə Qasım qızı - təşkilatçı, rus dili
4.Həsənova Solmaz Əli qızı - Azərbaycan dili və ədəbiyyatı
5.Allahverdiyeva Elmira Bəbir qızı - Azərbaycan dili və ədəbiyyatı
6.Ağakişiyeva Südabə Musa qızı - riyaziyyat
7.Ağayeva Bahar Məmmədalı qızı - riyaziyyat
8.İsgəndərova Solmaz Cəmil qızı - rus dili
9.Məmmədov Kamil Surxay oğlu - tarix
10.Vəliyeva Tahirə İsmayıl qızı - coğrafiya
11.Həsənova Sayad Balaca qızı - fizika
12.Hüseynova Günay Fikrət qızı - biologiya-kimya
13.Məmmədova Sara Balış qızı - ingilis dili
14.Məmmədova Fatma Məmməd qızı - biologiya

15.Əliyev Tofiq Xanlar oğlu - sinif müəllimi
16.Babayeva Nailə Famil qızı - sinif müəlliməsi
17.Qüdrətova Lyuba Yunis qızı - sinif müəllimәsi
18.Rəfiyeva Aybəniz Xurşud qızı - sinif müəllimәsi
19.Hüseynov Səttar İmran oğlu - idman
20.Hüseynov Əli Məmməd oğlu - hərbi rəhbər
21.Zeynalova Rübabə Nadir qızı - psixoloq

**MƏCBURİ KÖÇKÜNLÜK İLLƏRİNDƏ ALİ MƏKTƏBLƏRƏ QƏBUL OLAN MƏZUNLAR**

**1994-1995-ci dərs ili**

1.Məmmədov Aruz İlyas oğlu - Azərbaycan Beynəlxalq Universiteti
2.Murtuzayev Rasim Nazim oğlu - "Qafqaz" Universiteti
3.Fətəliyev Aqil Əli oğlu - Azərbaycan Beynəlxalq Universiteti
4.Məmmədov Emil Rəhman oğlu - Azərbaycan Beynəlxalq Universiteti
5.Kazımov Zaur Kamal oğlu - "Qafqaz" Universiteti

**1995-1996-cı dərs ili**

6.Əhmədov İxtiyar Həsən oğlu - Azərbaycan Dövlət Pedaqoji Universiteti
7.Seyidəliyeva Sevinc Nəriman qızı -"Təfəkkür" Universiteti
8.Cəfərov Ramin Ramiz oğlu - Azərbaycan Beynəlxalq Universiteti
9.Fətəliyev Niyaməddin Məhəmmədəli oğlu - Kooperasiya İnstitutu

**1996-1997-ci dərs ili**

10.Cəfərov Zamin Ramiz oğlu - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
11.Mirzəyev Məzahir Yəhya oğlu -Azərbaycan Beynəlxalq Universiteti
12.Vəliyev Hikmət Vəli oğlu - Azərbaycan Biznes Universiteti
13.Bəşirov Vüsal Kamal oğlu – Azərbaycan Texniki Universiteti
14.Həsənov Rafiq İba oğlu - Dağıstan Universiteti

**1997-1998-ci dərs ili**

15.Əliyev Humay Fazil qızı - "Xəzər" Universiteti
16.Əhmədov Nicat Elbrus oğlu - Azərbaycan Dövlət Neft Akademiyası
17.Kərimova Könül Valerik qızı - Azərbaycan Texniki Universiteti
18.Səfərov Samir Elman oğlu - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
19.Talıbov Vüsal Şirin oğlu - Bakı Dövlət Universiteti
20.Şirinova Nuranə Telman qızı - Mədəniyyət və İncəsənət Universiteti

**1998-1999-cu dərs ili**

21.Əliyev Hüseyn Məhəmmədəli oğlu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

22.Zülfüqarov Fazil Famil oğlu - Mədəniyyət və İncəsənət Universiteti

23. Seydəliyeva Amalya Nəriman qızı - "Təfəkkür" Universiteti

**1999-2000-ci dərs ili**

24.Atakişiyeva Albina Telman qızı -Mədəniyyət və İncəsənət Universiteti

25.Cəfərov Şahin Ramiz oğlu - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

26.Əhmədov Nahid Elbrus oğlu - Azərbaycan Dövlət Neft Akademiyası

27.Əliyeva Gülgün Fazil qızı - Mədəniyyət və İncəsənət Universiteti

28.Məmmədov Tural İlyas oğlu - Bakı Dövlət Universiteti

29.Talıbov Cavid Əbülfət oğlu - Mədəniyyət və İncəsənət Universiteti

**2000-2001-ci dərs ili**

30.Əhmədov Natiq Zöhrab oğlu - Azərbaycan Biznes Universiteti

31.Əliyeva Lamiyə Fərhad qızı - Mədəniyyət və İncəsənət Universiteti

32.Fətəliyev Sahil Əli oğlu - Bakı Dövlət Universiteti

33.Gülməmmədova Nuranə Fehruz qızı - Mədəniyyət və İncəsənət Universiteti

34.Hüseynova Yeganə Həsən qızı - Sumqayıt Müəllimlər İnstitutu

35.Rəsulzadə İlkin Vaqif oğlu - Azərbaycan Dövlət Pedaqoji Universiteti

36.Seyidəliyev Rəhman Nəriman oğlu - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**2001-2002-ci dərs ili**

37.Əzizov Asif Nurəddin oğlu - Azərbaycan Beynəlxalq Universiteti

38.Əliyev Yusif Fazil oğlu - Bakı Dövlət Universiteti

39.Hüseynov Röyal Şakir oğlu - Azərbaycan Kooperasiya İnstitutu

40.Rüstəmov Məhəmməd Müseyib oğlu - Azərbaycan Beynəlxalq Universiteti

41.Talıbova Şəbnəm Şirin qızı - Bakı Dövlət Universiteti

**2002-2003-cü dərs ili**

42.Quliyeva Əfsanə Səxavət qızı - Mədəniyyət və İncəsənət Universiteti

43.Əliyev Emin Fərhad oğlu - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

44.İsmayılov Elmir Müzəffər oğlu - Bakı Dövlət Universiteti

45.Qurbanova Gülnar Məhəmməd qızı - Azərbaycan Dövlət Tibb Universiteti

46.Quliyeva Çinarə Fuad qızı - İqtisad Universiteti
47.Quliyeva Sitarə Rafiq qızı - Azərbaycan Dövlət Dillər Universiteti
48.Məmmədova Elera Firəddin qızı - Mədəniyyət və İncəsənət Universiteti
49.Məmmədli Aysel Rasim qızı - Azərbaycan Beynəlxalq Universiteti
50.Muradlı Toğrul Zahid oğlu - Azərbaycan Dövlət Slavyan Universiteti

**2003-2004-cü dərs ili**
51.Ağalarova Gülnar Eldar qızı - Azərbaycan
Dövlət Dillər Universiteti

**2004-2005-ci dərs ili**
52.Ağalarov Babək Eldar oğlu - Bakı Dövlət Universiteti
53.Bəhlulov Müşfiq Təbriz oğlu - Bakı Dövlət Universiteti
54.Məmmədov Tural Mahir oğlu - Azərbaycan Dövlət Texniki Universiteti
55.Məmmədov Elgün Yusif oğlu - Azərbaycan Beynəlxalq Universiteti

**2005-2006-cı dərs ili**
56. Atakişiyev Uğur Telman oğlu - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
57. Ələkbərova Şahanə Münasib qızı - Sumqayıt Dövlət Universiteti
58. İmanov Nuru Tahir oğlu - Bakı Dövlət Universiteti
59. Məmmədov Anar İsaq oğlu - Türkiyə İzmir Universiteti

**ŞƏHİD MƏZUNLAR**
1. Çingiz Qasımov
2.Fuad Əsədov
3.Vahid Əliyev
4.Nurəddin Fətullayev
5.Ramiz Ağayev
6.Elmar Əliyev
7.Taleh İsmayılov
8.İlqar Mehdiyev



"Divlər sarayı" mağarası



On bir aşırımlı Xudafərin körpüsü



On beş aşırımlı Xudafərin körpüsü



**Cəbrayıl şəhərinin ümumi görünüşü**



**Şəhərə giriş**



M.Mehdizadə adına məktəbin
yeni tikilmiş binası



Şəhər parkının ümumi görünüşü



**Cəbrayıl Rayon İcra Hakimiyyətinin inzibati binası**




Dostluq bulağı



Çinar kəhrizi




**Məktəbin 125 illik yubileyinin açılışı**
**Soldan: məktəbin direktoru Müzəffər Sadıqov, təhsil şöbəsinin müdiri Validə Həsənova, rayon icra hakimiyyətinin başçısı Mahmud Quliyev, Milli Məclisin deputatı Kərəm Əliyev**



**Məktəbin 125 illik yubileyində**



Məktəb pedaqoji şurasının yığıncağı



Direktoryanı müşavirə



**Sinif müəllimi Nailə Babayeva dərs zamanı**



**Riyaziyyat müəllimi Bahar Ağayeva dərsdə**



**Tofiq Əliyev dərs zamanı**



**Səkkizgüşəli türbə**

## MƏKTƏB BU GÜN

Respublikamız müstəqillik qazanandan sonra onun siyasi, sosial-iqtisadi durumunda ciddi müsbət dəyişikliklər baş vermişdir. Cəmiyyətimizin demokratikləşdirilməsi, söz, vicdan və şəxsiyyət azadlığının bərqərar olması, inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi sahəsində atılan cəsarətli addımlar həm də təhsil sisteminin yenidən qurulmasına fundamental zəmin yaratmışdır.

"Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" prezident fərmanı, təhsil sahəsində islahat proqramı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin işləyib hazırladığı 10 illik təhsil strategiyası, "Respublikada ümumi orta təhsilin milli kurrikulumu layihəsi", "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı", eləcə də təhsil işçilərinin "Azərbaycan təhsilinin bu günü və inkişaf perspektivləri" mövzusunda keçirilmiş son respublika konfransının materialları və digər sərəncamlar, sənədlər, göstərişlərdə mərhələlər üzrə təlimin strukturunda, onun idarə edilməsində, məzmununda, mahiyyətində, kadr hazırlığında əsaslı dəyişikliklər aparılması nəzərdə tutulur.

Bu gün təhsil sistemi dövlət siyasətinin bir hissəsi, gələcəyin təminatçısıdır. Ümumbəşəri dəyərlərin, insan taleyi və sağlamlığının, şəxsiyyətin azad inkişafının ön plana çəkilməsi, bilik, bacarıq və istedadı cilalamaq məqsədilə hər bir şagirdə, yeniyetməyə, gəncə bərabər şərait yaradılması, təhsildə azadfikirliliyə və sərbəstliyə meydan açılması, təlim-tərbiyənin keyfiyyətinin maksimum yüksəldilməsinə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Müharibə şəraitində yaşadığımız indiki dövr, torpaqlarımızın 20 faizinin erməni faşistlərinin tapdağı altında qalması faktı, 1 milyon günahsız soydaşımızın öz vətənindən, isti od-ocağından didərgin salınması, uşaqlarımızda torpağa, doğma Vətənə, ana dilimizə sonsuz məhəbbət, Azərbaycanın ərazi bütövlüyünə edilən hər hansı bir təcavüzə qarşı barışmazlıq hisslərinin formalaşdırılmasını, mərdlik, mübarizlik, xeyirxahlıq, sadiqlik kimi mənəvi-əxlaqi keyfiyyətlərin aşılanmasını tələb edir. Bunların kökündə hərtərəfli biliklərə yiyələnmiş demokratik ruhlu yeni insan, fəal vətəndaş yetişdirilməsi problemi dayanır. Respublika Prezidenti İ.Əliyev cənabları demişdir: «Hər bir ölkənin intellektual potensialı təhsil ocaqlarında yaradılır».

Bu gün müəllim özünün ümumi səviyyəsindən, düşüncə, təfəkkür tərzindən, elmi-metodiki hazırlığından, başlıcası isə maddi vəziyyətindən asılı olmayaraq, hər bir şagirdə təlim prosesinin bərabərhüquqlu subyekti kimi yanaşmalı, onların meyl və marağını mütləq nəzərə almalıdır.  Unutmamalıyıq ki, müasir məkləb uşaqlara təkcə dövlət proqramı səviyyəsində bilik, bacarıq, vərdişlər aşılamaqla kifayətlənməməli, həm də onları vətənini, mənsub olduğu xalqı məcnun sevdası ilə sevən, onun başının üstündə üzərrik təpəri ilə yanmağı bacaran, Vətəninin

müdafiəsinə daim hazır olan, ictimai həyatda fəallıq göstərən, çətin vəziyyətlərdən baş çıxaran, öz hüquqlarını bilən əsl insan kimi yetişdirməlidir.

"Gələcək bilikli, elmli, vətənpərvər insanların çiyinləri üstündə qurulacaqdır... Xalqımızı, millətimizi, gənclərimizi tariximizə, mədəniyyətimizə, adət-ənənələrimizə uyğun öyrədib tərbiyələndirmək təhsilimizin əsas istiqaməti, məktəblərimizin, müəllimlərimizin borcudur". Ulu öndərimiz H.Əliyevin bu göstərişləri bütün dövrlər üçün aktuallıq kəsb edir.

Bu gün islahat proqramının həyata keçirilməsi istiqamətində respublikanın ümumtəhsil məktəblərində gərgin iş gedir. Təlim prosesinin təkmilləşdirilməsi işi getdikcə sürətləndirilir. Şagirdləri möhkəm, dərin və əsaslı biliklərlə, bacarıq və vərdişlərlə silahlandırmaq, onları müstəqil həyata hazırlamaq, ideya, siyasi, mənəvi, estetik və fiziki inkişafını yeniləşdirmək məqsədi ilə təlimin mütərəqqi forma və metodlarından, müasir texnologiyalardan yaradıcılıqla istifadə olunur.

Cəbrayıl rayonunun ümumtəhsil məktəbləri də bu qaynar proseslərdən kənarda qalmır.

1993-cü ildən - məcburi köçkünlük dövrü başlayandan rayon təhsil şöbəsinə 1993-1995-ci illərdə Kamil Məmmədov, 1995-2001-ci illərdə Əyyub Quliyev, 2001-ci ilin yanvarından isə Validə Həsənova rəhbərlik etmişdir. Onlar ağır köçkünlük illərində müəllim və şagirdlərin ağrı-acıları ilə yaşamış, onların problemlərini həll eləməyə çalışmışlar. Son illərdə təhsil sisteminin təkmilləşdirilməsi, məktəb şəbəkəsinin genişləndirilməsi, təlim keyfiyyətinin yaxşılaşdırılması, maddi-texniki bazanın yaradılması sahəsində V. Həsənova xeyli iş görmüşdür.

Təsadüfi deyil ki, respublikanın ali və orta ixtisas məktəblərinə qəbul ilbəil artır.

Hal-hazırda rayon üzrə 59 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan 47-si orta, 5-i əsas, 7-si ibtidai məktəblərdir. Tədris ocaqlarının 22-si Bakı və Sumqayıt şəhərlərinin ərazisində, qalanları isə respublikamızın müxtəlif ərazilərində yerləşir. Hazırda didərginlik, məcburi köçkünlük şəraitində işləyən məktəblərimizdə 9500 nəfər şagird elmlərin əsaslarına yiyələnir. Onların təlim-tərbiyəsi, əsl vətəndaş kimi yetişdirilməsi və formalaşdırılması 1400-dək müəllimə etibar edilmişdir. Mövcud çatışmazlıqlara baxmayaraq, ölkənin müxtəlif ərazilərində məskunlaşdığı dövrdən bu günədək məktəblərimizin məzunlarından hər il orta hesabla 60-65 faizi ali və orta ixtisas məktəblərinə qəbul olunur.

Cəbrayıl rayonundakı akademik M.Mehdizadə adına orta məktəb əvvəlki illərdə olduğu kimi bu gün də bütün təlim-tərbiyə göstəriciləri üzrə öndə gedir.

Məktəb məlum işğal hadisəsi ilə bağlı Bakı şəhərinə köçürülmüşdür. 1994-cü ildən öz fəaliyyətini Yasamal rayonu ərazisindəki Azərbaycan Dövlət Texniki Universitetinin hərbi kafedrasında davam etdirir. Hazırda burada 131 nəfər şagirdin təlim-tərbiyəsi ilə 21 müəllim məşğuldur. Məktəb ikinövbəlidir. 9 sinif otağı, 11 sinif komplekti vardır. Şagirdlərin təqribən 70 faizi 2005-2006-cı dərs ilini "4", "5"

qiymətlərlə başa vurmuşdur. Hər il buradan orta hesabla 8-10 nəfər məzun yüksək balla ali və orta ixtisas məktəblərinə qəbul olunur. Ötən tədris ilində məktəbi qurtaran 20 nəfərdən təhsilini davam etdirmək, ali məktəblərə və texnikumlara qəbul olunmaq üçün 11 nəfər sənəd vermiş, onlardan 9-u yüksək bal toplayaraq tələbə adına layiq görülmüşdür. Ümumiyyətlə, son 5 ildə məktəbin 84 məzunundan 59 nəfəri test üsulu ilə imtahan verərək ali və orta ixtisas məktəblərinə qəbul edilmişlər. Bu, sənəd verənlərin 73 faizi deməkdir.

Bu gün də təhsil ocağında öz elmi-metodiki səviyyəsi, peşə ustalığı, ixtisas biliyi ilə fərqlənən, qabaqcıl təcrübəni, müasir pedaqoji nailiyyətləri öyrənib öz işində tətbiq etməyə səy göstərən müəllimlər çalışırlar. Azərbaycan dili və ədəbiyyatı müəllimləri Müzəffər Sadıqov, Rasim Məmmədov, riyaziyyat müəllimləri Bahar Ağayeva, Südabə Ağakişiyeva, ingilis dili müəllimi Sara Məmmədova, rus dili müəllimi Qasımlı Şəlalə, sinif müəllimləri Nailə Babayeva, Tofiq Əliyev, kimya-biologiya müəllimi Günay Hüseynova belələrindəndir.

Şagirdlərin fəallaşdırılmasına, ümumiləşdirmə aparmaq, nəticə çıxarmaq, tədqiqatçılığa həvəsləndirmək kimi motivasiyalara əsaslanan interaktiv təlim metodundan yararlanmaq bu məktəbdə də geniş vüsət almışdır. Təlim-tərbiyə işləri üzrə direktor müavini **Rasim Məmmədov** öz dərslərində fərdi, eləcə də bütün siniflərlə və qruplarla iş kimi fəal təlim metodundan məharətlə istifadə edir. Müvafiq bilikləri şagirdlərinə hazır şəkildə deyil, öz subyektiv mülahizələri əsasında mənimsədir. O, ana dili fənninin başqa fənlərlə müqayisədə daha səmərəli öyrənilməsi, uşaqların bədii təfəkkürünün formalaşdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini əsas tutaraq onlarda hərtərəfli nitq hazırlığı, savadlı yazı, şüurlu və ifadəli oxu vərdişləri yaratmağı daim diqqət mərkəzində saxlayır.

Riyaziyyat müəllimi **Südabə Ağakişiyeva** daim arayıb-axtarır, öz üzərində çalışır. Onun dərsləri metod və təşkilinə görə biri digərinə bənzəmir.

Südabə müəllimə tədris etdiyi fənni uşaqlara müasir, daha çevik və səmərəli təlim üsulları ilə sevdirməyə çalışır. Proqram materiallarını problemli təlim üsulları ilə, diskussiyalara geniş yer verməklə öyrətməyə can atır.

İngilis dili müəllimi **Sara Məmmədova** bütün dərslərini yaradıcı, maraqlı və planlı şəkildə tədris edir. Sözlərin şagirdlər tərəfindən düzgün tələffüz olunmasına, söz ehtiyatlarının artırılmasına, onların düzgün danışıq qabiliyyətinə yiyələnmələrinə, bir-birilə dialoq formasında canlı ünsiyyət qurmalarına daha çox diqqət yetirir.

Məktəbdə biologiya və kimyanın əsaslarını öyrədən **Günay Hüseynova** tədrisin səmərəliliyi, effektivliyi istiqamətində müxtəlif yönümlü axtarışlar, maraqlı təcrübələr aparır. O, keçdiyi mövzuları çox vaxt icmallaşdırır, məlumatları sxem şəklində yığcamlaşdırır ki, bu da uşaqlara qısa vaxt ərzində daha çox bilgilər verməyə stimul yaradır.

İbtidai sinif müəllimləri **Tofiq Əliyev** və **Nailə Babayevanın** fikrincə, təhsilin taleyini həll edən, hər bir pedaqoji kollektivə başucalığı gətirən, heç

şübhəsiz, müəllimdir. Təsadüfi deyil ki, aqillər "müəllimi yaxşı olan cəmiyyətə zaval yoxdur" deyiblər. Şagirdlərə oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu kimi ilkin vərdişlərin mənimsədilməsi, lüğət ehtiyatının getdikcə zənginləşdirilməsi, eləcə də onları müxtəlif həyat bilgiləri, riyazi anlayışlarla silahlandırmaq öz işinin ustası olan bu müəllimlərin çoxillik təcrübəsinin, əməli fəaliyyətinin əsas istiqamətləridir...

Bununla belə, bütün fənlər üzrə keyfiyyətin səviyyəsini tam qənaətbəxş saymaq olmaz. Görüləsi işlər hələ çoxdur. Mövcud çətinliklərə baxmayaraq, məktəbdə uşaq şəxsiyyətinin, etik-estetik dünyagörüşünün formalaşdırılmasına, milli adət-ənənələrimizin və vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərən sinifdənxaric tədbirlərin keçirilməsi də daim diqqət mərkəzindədir. Tarixi ənənələrin davamı olaraq elm və incəsənət xadimləri, əmək adamları, vətənin azadlığı uğrunda vuruşmuş soydaşlarımızla, hüquq mühafizə orqanları işçilərilə, şəhid ailələrilə görüşlər, eləcə də "Qarabağ əzəli və əbədi torpağımızdır", Şəhidlərimiz - şahidlərimiz", "Vətəni sevməyən insan olmaz", "Təbiət anadır, qoruyaq onu", "Ana dilim-şirinim, şəkərim", "Nə yaxşı ki, dünyada Səməd Vurğun varmış", "Sərvət görmək istəyən Azərbaycana gəlsin" və s. mövzularda keçirilən ədəbi-bədii kompozisiyalar, disputlar, diskussiyalar, sual-cavab saatları, yubiley mərasimləri böyük maraq doğurur.

İstedadlı şagirdlərin aşkara çıxarılmasında fənn olimpiadalarının əhəmiyyətini qədərincə dəyərləndirən pedaqoji kollektiv bilik yarışma adətən dərs ilinin əvvəllərindən hazırlaşır. Hər il əsas fənlər üzrə keçirilən olimpiadaların rayon turunda məktəbin fəal şagirdləri yüksək bal toplayır, qaliblər respublika turuna vəsiqə alırlar.

Məktəbdə bədii yaradıcılıq, eləcə də idman sahəsində istedadlı uşaqların sayı, tərkibi, meyl və maraqları haqqında ilkin məlumat toplanılır və işin düzgün təşkili sahəsində onlarla məqsədyönlü tədbirlər həyata keçirilir. Xüsusi istedad və qabiliyyətə malik olan belə şagirdlər məktəbdə çoxdur. V sinif şagirdi Fərahim Fəxri Hüseynzadə dərs əlaçısıdır. Musiqi məktəbində də oxuyur, həm də IV dərəcəli şahmatçıdır. Kiçik yaşlarından şeir yazır. III sinifdə ikən Fərahimin "Mən Cəbrayıl balasıyam" adlı ilk şeirlər kitabı nəşr olunmuşdur. Burada onun təmsilləri, rəsm əsərləri də yer almışdır. 2004-cü ildə isə gənc şairin "Arzuların qanadında" adlı ikinci kitabı işıq üzü görmüşdür. Hər iki kitabın sponsoru rayonun icra başçısı Mahmud Quliyevdir.

Razifə Məmmədova, Nahidə Quliyeva, Cəmilə Məmmədova və başqaları "Bacarıqlı əllər" dərnəyinin fəal üzvləridir. Onların rəsmləri, əl işləri "Məktəbimizin istedadları" stendini bəzəyir.

İdman sahəsində də məktəbin müəyyən nailiyyətləri vardır. Orxan Həmzəyev karate üzrə beynəlxalq yarışın qalibidir. Uğur Atakişiyev "Qara kəmər" mükafatına layiq görülmüşdür. Məktəbdə şahmat üzrə dərəcəli idmançılar yetişdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" ilə əlaqədar məktəbdə geniş tədbirlər planı hazırlanmışdır.

Bunlarla yanaşı, ölkənin təhsil sisteminin yenidən qurulduğu, qabaqcıl dövlətlərin təhsil sisteminə inteqrasiya olunmasına geniş imkanlar açıldığı indiki dövrdə 130 illik yubileyini qeyd etməyə hazırlaşan bu tədris müəssisəsində hər şeyin qaydasında olduğunu demək olmaz. Məktəb müasir tələblər baxımından ciddi çətinliklərlə, problemlərlə üz-üzədir. Məktəbin ayrıca binası yoxdur, maddi-texniki bazası zəifdir.

Ümumtəhsil məktəblərinin kompyüterlərlə, ən müasir avadanlıq və cihazlarla, informasiya kommunikasiya texnologiyaları ilə təminatından, Boloniya sisteminə qoşulmaqdan söhbət getdiyi bir vaxtda 130 yaşlı təlim-tərbiyə ocağında əyani vəsaitlər, adi texniki təlim vasitələri yox dərəcəsindədir.

Lakin mövcud çətinliklər, məhrumiyyətlər, müasir dövrün tələbləri səviyyəsində təlim şəraitinin yaradılmaması dözümlü, işgüzar, nikbin, daim yenilik hissilə, ümidlə yaşayan məktəbin pedaqoji kollektivini qətiyyən ruhdan salmır, əlini işdən soyutmur. Kökü çox-çox dərinliklərə gedib çıxan, tarixən hər cür sınaqlara mətanətlə sinə gərən bu təlim-tərbiyə ocağında təhsil ənənələri bu gün də yaşayır, cavanlaşır, yeni pöhrələr verir. Bu pöhrələr böyüyür, şaxələnir, qol-qanad atır.

Əminik ki, bu tanınmış elm-mərifət ocağının şöhrəti heç vaxt solmayacaq. Bu ocaq daim gur yanacaq. Sönməyən məşəl kimi! Necə deyərlər, estafet etibarlı əllərdədir.

Qocaman məktəbin pedaqoji kollektivi inanır ki, əsası ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulmuş Azərbaycanın uğurlu daxili və xarici siyasət strategiyasını müvəffəqiyyətlə, böyük əzmlə davam etdirən Prezident İ.Əliyev cənablarının rəhbərliyilə işğal altındakı qızıl torpaqlarımız azad olunacaq, ölkəmizin ərazi bütövlüyü təmin ediləcək, Qarabağ münaqişəsi bizim xeyrimizə həll olunacaq, Ermənistan - Azərbaycan müharibəsi öz ədalətli həllini tapacaq, on üç ildən çox müddətdə məcburi köçkünlük, sürgünlük şəraitində yaşayan, kirpiklərilə od götürən soydaşlarımız tezliklə doğma ata-baba yurduna, isti od-ocağına qayıdacaq. Məktəb sonrakı qaynar fəaliyyətini cənnətməkan Cəbrayılda davam etdirəcəkdir. Orada səadət, bəxtiyarlıq günəşi yenidən doğacaq.

Biz buna inanırıq!

## İstifadə olunmuş ədəbiyyat

1.Quliyev Ş., Abbasov T., Quliyev F. «Cəbrayıl». Bakı, "İşıq" nəşriyyatı, 1993.

2.Əhmədov H. «XIX əsr Azərbaycan məktəbi». Bakı, "Maarif" nəşriyyatı, 1985.

3.Ağayev K. «100 yaşlı məktəb». Bakı, "Maarif" nəşriyyatı, 1976.

4.Tapdıqoğlu N. «Cəbrayıl rayonu və onun toponimiyası». Bakı, 2004.

5.«Cəbrayıl yaddaşlarda». Bakı, "Adiloğlu" nəşriyyatı, 2001.

6.Kazımov İ., Mehdiyev B., Zeynalov B., Kazımov Ç. «Cəbrayıl və cəbrayıllılar» (I hissə ). Bakı, "Nurlan" Nəşriyyatı, 2006.

7.Xəlilov V., Musayev H. «Akademik Mehdi Mehdizadə ömrünün işığı». Bakı, "Şərq-Qərb" Nəşriyyatı, 1998.

8.Abbaslı T., «Qurbininin poetik irsi», Bakı 2004.

9.«Qolubağlı keçdim Xudafərindən». Tərtibçi T.Abbaslı. Bakı, 1999.

10."Azərbaycan müəllimi" qəzeti. Bakı, 2006, № 38.

11."Xudafərin" qəzeti. Bakı, 2006, № 9-10.

12."Kredo" qəzeti. Bakı, 2006, № 41.

13.Cabbarov R. Təhsil müəssisələrinin idarə edilməsi və planlaşdırılması məsələləri. Bakı, "Qarant", 2000.

14.Təhsilin humanistləşdirilməsi yolu ilə yeni təfəkkürün inkişafı. Bakı, "Təhsil" nəşriyyatı, 1999.

# MÜNDƏRİCAT

Cəbrayıl şəhərindəki akademik M.Mehdizadə adına (keçmiş M.Qorki adına) orta məktəbin 100 (1976-cı il) və 130 (2006-cı il) illik yubileylərinin keçirilməsi haqqında rəsmi sənədlər
Ön söz əvəzi
Cəbrayılın tarixi keçmişi haqqında
Birsinifli normal rus məktəbi necə yarandı
Məktəbin məzunları
Məktəb inkişaf yollarında
Məktəb müəllim kollektivinin fəaliyyəti
Məkləb bu gün
İstifadə olunmuş ədəbiyyat

**QORXMAZ ABDULLA**
***(Qorxmaz Əvəz oğlu Abdullayev)***

**ARİF XƏLİLOV**
***(Arif Cəliloğlu Xəlilov)***

**TARİYEL ABBASLI**
***(Tariyel Allahverdi oğlu Abbasov)***

# SÖNMƏYƏN MƏŞƏL

**Dizayner: Süleyman İsgəndərov**
**Bilgisayar tərtibatçı: Rahilə Məmmədova**

Çapa imzalanmışdır: 14.11.2006
Kağız formatı: 60x84 1/16
Həcmi:7,75 ç.v.; Sifariş: 658; Sayı: 1000

Kitab "ADİLOĞLU" nəşriyyatında
nəşrə hazırlanmışdır.
*Ünvan: Bakı şəh., Nizami küç., 96/12*
*Tel: 498-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az; E-mail: info@ adiloglu.az*

"TS" mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: İ.Məmmədov küçəsi, 1059;*
*Tel: 418-68-25*